Qafar Çaxmaqlı

# Dağlıq Qarabağ işğaldan əvvəl ...və sonra

6057

Kitab Müstəqil Araşdırmaçı Jurnalistlər Liqasının Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirdiyi "Azərbaycanm Dağlıq Qarabağ bölgəsində yaşayan əhalinin işğalaqədərki və işğaldan sonrakı dövrdə iqtisadi-sosial durumu (müqayisələr, təhlillər, nəticələr)" layihəsi çərçivəsində hazırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

63.3(5Azə-6)
Ç 17

**Redaktor: Muxtar Oxçoğlu**

**Q.Çaxmaqlı. Dağlıq Qarabağ işğaldan əvvəl ...və sonra**
– Bakı: Hərbi Nəşriyyat, 2009. – 136 səhifə.

Kitabda Qarabağın tarixinə ekskurs edilir, ermənilərin bölgəyə köçürülməsindən bəhs olunur, onların Dağlıq Qarabağa olan iddialarının əsassızlığı tarixi sənəd və dəlillərlə təqdim edilir. İşğaldan əvvəlki dövrlərdə buradakı həyat tərzi, sosial-iqtisadi inkişafın bir sıra aspektlərindən bəhs edilərək ermənilərin DQMV-in 1923–1991-ci illərdə geri qalması barədə fitnəkar bəyanları ifşa edilir. Bu gün Dağlıq Qarabağın acınacaqlı durumu ilə bağlı inandırıcı dəlillər irəli sürülür, separatçı rejimin bu torpaqların yeraltı və yerüstü sərvətlərini talan etməsindən danışılır...

**Kod 022**

**© Q.Çaxmaqlı, 2009**



## "Qarabağın Dağlıq və Aran hissələri Siam əkizləridir"

Bu həqiqət heç zaman şübhə altına alına bilməz ki, Dağlıq Qarabağ Azərbaycanın əzəli və əbədi ərazisidir. Heç bir qüvvə bu torpaqlara sahiblik hissini biz Azərbaycan türklərinin əlindən ala bilməz və Qarabağa olan sonsuz sevgini içimizdən yox edə bilməz. Əlinizə alacağınız bu kitab Qarabağa sonsuz sevgidən araya-ərsəyə gəlmiş kiçik bir nümunədir. Bu kitabda siz işğal altında olan Vətən torpağının bu günün özündə belə necə böyük əzablar içində çırpındığını görəcəksiniz. Ermənilər bu gün Qarabağa divan tuturlar, onun yerüstü və yeraltı sərvətləri talan edilir, gözəl təbiətinə sağalmaz yaralar vurulur. Bu da onu göstərən cəhətlərdən biridir ki, Qarabağı, onun həm dağ, həm də aran hissəsini ermənilər özlərinə vətən bilmirlər, onlar burada müvəqqəti olduqlarını dərk etdiklərindən mümkün qədər ona zərər vurmağa çalışırlar.

Bu tədqiqatda biz, əsasən, Dağlıq Qarabağın işğalaqədərki və işğaldan sonrakı dövrdə

durumu, onun sosial-iqtisadi vəziyyəti barədə oxuculara məlumat verməк istəmişik. Bu, bizə nə üçün lazımdır? Çünki ermənilər Dağlıq Qarabağı Azərbaycandan qoparmaq üçün həmişə bu bəhanədən istifadə etməyə çalışmışlar ki, guya Azərbaycan qəsdən bu bölgənin iqtisadi cəhətdən geriləməsinə çalışmış, burada yaşayan erməni millətindən olan insanlara ayrı-seçkilik etmiş və onları milli basqı altında saxlamışdır. Bizim araşdırmalarımız bu erməni avantürasını alt-üst edir. Ermənilər Azərbaycanın tərkibində – DQMV-də nəinki pis yaşamışlar, əksinə, onların həyat tərzi qonşu Azərbaycan rayonlarından qat-qat yaxşı olmuşdur. Hələ üstəlik buradakı göstəricilər bütün dövrlərdə ümumAzərbaycan göstəricilərindən üstün olmuşdur. Biz bu tədqiqatda demək istəmişik ki, Dağlıq Qarabağı iqtisadi cəhətdən ayrı bir regiona birləşdirmək cəhdi özü, əvvəla mümkün deyil, ikincisi isə bu cəhdlər onu ekonomik fəlakətə apara bilər. Bunu erməni separatçılara başa salmaq lazımdır. Onlar da, xaricdəki havadarları da bilməlidirlər ki, Dağlıq Qarabağ Aran Qarabağı ilə bir coğrafi region, kompleks ekoloji sistem, bir-birini tamamlayan vahid təbii resurslara malik bir yerdir,



erməni ziyalı Robert Arakelovun təbirincə, Aran və Dağlıq Qarabağ "siam əkizləridir", onları ayırmaq nadanlıqdır. Bizim üçün bu gün Qarabağın vahid təbii coğrafi birliyini bərpa etmək çox vacibdir. Bunun üçün ermənilər başa salınmalıdır ki, bu illər ərzində siz heç nəyə nail ola bilmədiniz. Çünki Qarabağ vahid regiondur və o yalnız Azərbaycan Respublikasının tərkibində gəlişə, inkişaf edə bilər. Yetər ianələrlə dolandınız, əl açıb diləndiniz! Onsuz da Qoca Tarix hər şeyi öz yerinə qoyacaq. Qarabağla bağlı da belə olacaqdır.

Bu kitabı hazırlayanlar o fikirdədirlər ki, ötən 20 ildə ermənilərin Dağlıq Qarabağla ilgili atdıqları bütün addımlar, separatizm, sonra da Rusiyanın köməyi ilə işğal faktı tarixi ədalətsizlikdir və gec-tez bu "səhvi" ermənilər özləri dərk edəcəklər. Əgər bütün bunlar baş verməsə, yəni ermənilər məsələyə ağılla, sağlam düşüncə ilə yanaşmasalar, Azərbaycan xalqının gücü çatacaq ki, ermənilərin XX əsrin sonlarında buraxdıqları "səhvi" öz ordusunun gücü ilə düzəltsin. Ordumuz bu gün buna qadirdir. Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dəfələrlə vurğulamışdır ki, biz heç zaman

Azərbaycan torpaqları içərisində ikinci bir erməni dövlətinin yaranmasma imkan verməyəcəyik.

Bu kiçik kitabı diqqətinizə çatdıraraq bir daha vurğulamaq istərdik ki, Qarabağın Aran və Dağlıq hissələri vahid regiondur və onların bir-birindən ayrı mövcudluğu sadəcə olaraq mümkün deyil. Biz də bunları deməyə çalışmışıq.

*Müəllif*



## 1. Dağlıq Qarabağ – coğrafi məkan kimi

Tarixi Azərbaycan torpaqlarınm mərkəzində yerləşən Dağlıq Qarabağı ermənilər 1988-ci ildən sonra "Artsax"olaraq adlandırmağa başlamışlar. "Artsax" sözünün özü bu bölgənin ermənilərə məxsusluğunu qətiyyən bildirmir, əksinə bu kəlmənin etimologiyası türklərin daha qədimdən burada məskunlaşdığı aydınlaşdırır. Artsax Azərbaycanın vaxtilə Albaniya adlanan dövlətinin bir hissəsi idi və mərhum ermənişünas alim professor Mirəli Seyidov hələ 70-80-ci illərdə yazdığı əsərlərdə, "Artsax" toponiminin türklərə məxsusluğunu sübut etmişdi. Onun "Qarabağ Arsaq, Arşaq toponiminin etimologiyası haqqmda qeydlər" məqaləsində göstərmişdi ki, arsaq (arşak) türkcə "sak kişisi", başqa anlamda "igid, qəhrəman" deməkdir. Arsak (Ərsək) sözündən saysız hesabsız yer-yurd adları yaranmışdır. (Ərtoğrul, Ərdəhan, Əraz, Ərak, Ərəş). Artsax sözünün birinci hissəsinin "ar" (ər) türk tərkibi heç bir tədqiqatçıda şübhə doğurmadığından onun məxsusluğundan da qeyri-müəyyən formada danışmaq ən azı elmilikdən uzaq bir işdir və dediyimiz kimi Dağlıq Qarabağın Artsax adlandırılması-

nın özü bu bölgənin ermənilərə məxsusluğunu bildirməz. Prof. M.Seyidov yazır ki, "... Bu ad Qarabağ və onunla eyni vaxtda, ola bilsin qabaqlar da işlənən Arsaq (Artsax) adıdır. Necə olmuş ki, Qarabağın iki adı yaranmışdır? Bizcə, Arsaq daha əskidir. Həmin qəbilə Azərbaycan xalqının soykökündə duran başqa qəbilələrlə qaynayıb – qarışdıqca qəbiləbirləşməsi müstəqilliyini itirmiş və yer, ərazi adı kimi arxa plana çəkilmiş, "Qarabağ" sözü ön plana çıxmışdır. Arsaq (Artsax) və Varsaq / Vartsax qəbilə adının izahı Azərbaycan tarixi ilə bağlı bir sıra qaranlıq, az öyrənilmiş məsələlərin işıqlandırılmasına, soykökün qaynaqlarının aydınlaşmasına imkan verir. Arsaq yer adını aydınlaşdırmazdan öncə, lap qısa da olsa, Qarabağ adı haqqında fikrimizi söyləyək. "Qara" və "bağ" tərkiblərindən yaranmış "Qarabağ"ın birinci hissəsinin "rəng", "pis", "qayğılı", "bədbəxt", "şimal", eləcə də başçı, böyük, güclü anlamı vardır. Azərbaycanın bir sıra yerlərində böyük qardaşa da qara deyirlər. "Qarabağ" adının ikinci tərkibi "bağ"ın "bağ (ip)", "düyün", "bağ (bağ – bağat)", "soybirləşməsi silsiləsi", "xalqın bir hissəsi" və b. anlamları daha çox yayılmışdır. Deməli, Qarabağ – güclü, böyük soybirləşməsinin, xalqın başçısı, bölgüsü deməkdir. Görünür ki, burada azərbaycanlıların ulu babalarının güclü, böyük bölgüsü məskən salmışdır. Araşdırma aydınlaşdırır ki, doğrudan da bu torpaqlarda vaxtilə Orta Asiyadan tutmuş Qafqaza qədər səs salmış böyük, güclü bir qəbilə birləşməsi – Arsaqlar yaşamışlar". "Qarabağ" sözünün isə iki sözün birləşməsindən ibarət olduğu bəllidir. Bu ifadə yer adı kimi VII əsrdən işlənməyə başlamışdır. Qarabağ Qafqaz Albaniyasından sonra Ərəb xilafətinin əsarətini yaşamış IX-X əsrlərdə Sacilər dövlətinin, X əsrdə Salarilərin, XI-XII əsrlərdə Şəddadilərin, XII-XIII əsrlərdə Eldəgizlərin, XIII-XVI əsrlərdə Hülakulərin, XV-XVI əsrlərdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olmuşdur. Azərbaycan xanlıqlara parçalanarkən Qarabağ bəylərbəyliyi ərazisində Qarabağ xanlığı və Gəncə xanlığı yaranmışdı.

17 mahala bölünmüş Qarabağ xanlığının ərazisi şərqdən Kür-Araz çayları qovşağı, cənubdan Araz çayı, qərbdən Qarabağ dağları adlanan Köşbek, Salvartı, Ərikli dağları ilə Göyçə gölünə qədər uzanmış, şimaldan Kür çayı ilə sərhədi vardı.

Ermənilərin Qarabağa gəlişi XIX əsrin əvvəllərinə təsadüf edir. Rusiya Qafqazı əldə etmək planlarını həyata keçirməyə başlayarkən ilk olaraq Qarabağa sahibləndilər. Qarabağ xanı İbrahim xanla rus qoşunlarının komandanı R.D.Sisianov arasında Kürəkçayda bağladıqları müqavilə Qarabağın işğal fərmanı oldu və tarixi saxtalaşdırmağa cəhd edən ermənilərə bu ən yaxşı cavabdır ki, Qarabağ məhz türk-müsəlman ölkəsi kimi Rusiyaya birləşdirildi. Amma Çar Rusiyası bu bölgəni daim əldə saxlamaq üçün müəyyən planlar cızırdı və Azərbaycanın digər əraziləri də işğal olunarkən onu əbədi rus torpağı etmək ideyası ortaya çıxırdı. Bölgəni əldə saxlamağın məqbul yollarından biri buraya erməni əhalini köçürmək idi. 1828-ci ildə Rusiya-İran arasında bağlanan "Türkmənçay" müqaviləsindən sonra ermənilərin köçürülməsi kütləvi xarakter aldı. 1829-cu ildə Ədirnə müqaviləsindən sonra isə Osmanlı ərazilərindən erməniləri Qarabağ və İrəvan xanlığının ərazilərinə köçürməyə başladılar. Təkcə bu müqaviləyə əsasən, 84 min erməni Qarabağ və digər ətraf ərazilərə köçürüldü. 1978-ci ildə ermənilər Dağlıq Qarabağın Ağdərə (Mardakert) rayonunun Marağa kəndinə köçürülmələrinin 150 illiyini keçirmişdilər. Orada bir daş abidə də ucaldılmışdı, üzərində "Marağa -150" sözləri həkk olunmuşdu. Bu fakt özü də sübut edir ki, Qarabağda ermənilərin məskunlaşma tarixi vur-tut 150 il idi. Qarabağın erməniləşməsi bir rus planı olmuşdur. Bunu tarixi sənədlər də sübut edir. 1783-cü ilin 19 maymda knyaz A.Ptyomkinin II Yekaterinaya yazdığı məktubun özü də yaxşı bir mənbədir. Həmin məktubda knyaz çariçanı ehtiyatlandırır və "Qarabağı ermənilərin idarəsinə verməklə Asiyada xristian bir dövlət qurmağın" faydalı olacağından bəhs etmişdi. 1828-ci ildən sonra kütləvi erməni köçü Rusiyanın hələ daha əvvəl müəyyən olunmuş hərbi doktrinasının tərkib hissəsi idi və 1828-1830-cu illər arasında, cəmi 2 ildə qeyri-rəsmi olaraq 200 mindən çox erməni köçürülüb yerləşdirilmişdi. Bütün bu köçürmələrə baxmayaraq, yenə də onlar bölgədə çoxluq təşkil etmirdilər. Burada əhalinin faiz nisbəti belə idi: 64,4% müsəlman-türk, 34,8% erməni. Qarabağda o zaman yerli xristianlar da yaşayırdılar. Ermənilər bu əhalini, yəni albanları öz içərilərində zaman-zaman əridib yox etdilər. İndi də burada qriqorianlaşmış və erməniləşmiş albanlar yaşa-

maqdadırlar. Ermənistanın keçmiş prezidenti, R.Koçaryanın bir televiziya müsahibəsində alban olduğunu dilə gətirməsi təsadüfi deyil.

"Dağlıq Qarabağ haradadır" sualına birmənalı şəkildə belə cavab vermək olar. Bu bölgə Azərbaycanın mərkəzi hissəsində yerləşən və digər Azərbaycan bölgələrindən (məsələn Aran Qarabağdan) ayrılması mümkün olmayan və hətta heç vaxt təsəvvürə gətirilməyən bir Vətən parçasıdır. Muxtar vilayətin ərazisi 4,4 min kvadrat kilometrdir, Azərbaycan Respublikasının beşdə birini təşkil edir. 1970-ci ildə DQMV-də 150 mindən bir qədər artıq əhali yaşayırdı. Vilayətin tərkibinə Xankəndi şəhəri, Əsgəran, Hadrut, Ağdərə, Martuni, Şuşa rayonları daxil idi. O indi Ermənistan Silahlı Qüvvələrinin nəzarəti altındadır.

## 2. Siyasi-iqtisadi münasibətlərin bəzi tarixi məqamları

Dünyanın ən qədim tarixi diyarlarından, insan məskənlərindən biri olduğunu Qarabağda tapılmış nümunələr də sübut edir. Azıx mağarasında qədim insanın yaşayış məskəninin aşkar edilməsi və burada tapılmış əmək alətlərinin 1,5 milyon illik yaşı olan Quruçay mədə-



niyyətinə aid edilməsi də göstərir ki, bu ərazi yüksəlişdə olmuşdur. İqtisadi mədəniyyət maddi mədəniyyətin də inkişafına təkan vermişdir. Qarabağın arxeoloji cəhətdən öyrənilməsi işinə maneələr burada ilk insan izlərinin məhz bu diyara məxsusluğunu sübut etməyə imkan verməmişdir. Burada mezolit (orta daş dövrü) və eneolit (mis daş dövrü) dövrlərinin də geniş inkişafını müəyyənləşdirmək elm üçün elə də çətin deyil. Eneolit tunc və ilk dəmir dövrlərində Qarabağın həyatında baş verən dəyişiklikləri alimlərimiz tutarlı dəlillərlə sübut etmişlər.

Qarabağ işğal olunandan sonra "xəstə təxəyyülü" erməni alimləri Azıx mədəniyyətinin erməni xalqına "aidliyini" sübut etmək və oradan tapılan kəllə sümüklərinin indiki ermənilərin kəllə sümüyünə oxşaması barədə ciddi elm adamlarında gülüş doğuracaq iddialarda bulunmuşlar. Azıx mədəniyyətinin tədqiqinə cəlb edilmiş əcnəbi alimlərə də buranın ən qədim erməni məskəni olduğunu dedirtməyə çalışmışlar. Ermənilərin saxtakar, tarixi özlərinin xeyrinə yazmaq cəhdləri əvvəlki əsrlərdə də olmuşdur. Şübhəsiz ki, tarix yazmaq ermənilərin öhdəsinə buraxılmayacaq qədər ciddi iş olduğundan dünya alimləri onları bu addımlar-

dan da çəkindirməyə çalışmışlar. Dünya və Azərbaycan alimləri onlara sübut etmişlər ki, nəinki qədim dövlətlərdə, heç Orta Çağda da Qarabağın ermənilərə aidiyyəti olmamışdır. Son tunc və ilk dəmir dövrü (b.e.ə. XIII-VII əsrlər) Qarabağda Xocalı-Gədəbəy mədəniyyəti adı altında böyük bir mədəniyyət mövcud idi. Buradan tapılmış mixi yazılı əqiq muncuq (Abadnirariyə aid) və digər tapıntılar bölgənin Yaxın Şərqlə iqtisadi və mədəni əlaqələrini əks etdirir. Ermənilər bu torpaqlara gəlişi tarixi də məlumdur. Onlar özləri 1978-ci ildə Marağa kəndində "Marağa-150" yazılmış abidə ucaltmış və bu təntənəni qeyd etmişlər. Bu yubiley isə o dövrdə çıxan bütün Azərbaycan və Erməni mətbuat orqanlarında dərc edilmişdi.

Hələ bundan, yəni ermənilərin Qarabağ və İrəvan xanlığının ərazilərinə köçürülmələrindən əvvəl Rusiyanın Qarabağ uğrunda siyasi və əsgəri mübarizəsi, diplomatik fəaliyyətləri aparılmışdı. XVII əsrin sonlarında Rusiya açıq şəkildə Qarabağa iddiasını irəli sürmüşdü. 1797-ci ildə İran şahı A.Qacar Şuşanı tutandan və burada öldürüləndən sonra Qarabağın da Rusiyaya birləşdirilməsi fikri ortaya çıxdı. Buna qədər 1803-cü ildə Balakən və 1804-cü ildə



Gəncə ruslar tərəfindən işğal olunmuşdu. Qarabağ xanı İbrahim xan Rusiya orduları qarşısında duruş gətirə bilməyəcəyini dərk edirdi. Ona görə də Rusiya qoşunları komandanı P.Sisianovla Kürəkçayda (1805) müqavilə bağladı. Bu müqaviləyə görə, Qarabağ Rusiyaya birləşdirildi. Qarabağı erməni ərazisi hesab edən ermənilərə belə bir sual verilə bilər ki, Qarabağ o zaman kimlərə məxsus idi və Rusiyaya hansı əsaslarla ilhaq edildi. Kürəkçay müqaviləsində açıq-aydın Qarabağın müsəlman-türk xanlığı kimi Rusiyaya ilhaq edilməsi və burada yaşayan müsəlman əhalinin rus təəbəliyinə keçməsi qeyd olunur. Xan hakimiyyəti isə ləğv edilmirdi. Xan bütün Qarabağ ərazisində hakim idi və IV maddəyə görə bütün daxili işlər onun ixtiyarında qalırdı. Xan hakimiyyəti bir növ vassal hakimiyyəti idi. 1806-cı ildə Rusiya-İran müharibəsi zamanı Qarabağ xanı İbrahim xan qətlə yetirildi, onu əvəzləyən Mehdiqulu xan isə zəif olduğundan çar hakimiyyəti burada müsəlmanların rolunu aşağı salmaq üçün erməınlərdən faydalanmışdır. Ermənilər həmişə cəlbedici toplum olmuşlar. Şərqi Anadoluda da xristianlar öz planlarını həyata keçirmək üçün digər xristian xalqlara

deyil, məhz ermənilərə üstünlük vermişlər. Qarabağı Rusiyanın bir müstəmləkəsinə çevirmək üçün buraya erməni əhalini köçürmək planı işlənib hazırlandı və Rusiyanın ərazi-inzibati islahatlar sistemində Qarabağ futbol topu kimi ordan-bura, burdan-ora tullanmışdı. Onu tez-tez digər quberniyalara verib ondan alma əslində Qarabağ xanlıq anlayışının siyasi mənasını yerli-dibli yox etmək idi. Amma Qarabağı coğrafi anlayış kimi hafizələrdən çıxarmaq mümkün olmadı.

1828-ci il Türkmənçay müqaviləsi ilə ermənilərin İrandan kütləvi şəkildə Qarabağa köçürülməsi, daha sonra 1829-cu ildə Ədirnə müqaviləsi ilə Osmanlı İmperatorluğu ərazilərdən yenə işğal olunmuş torpaqlara dövlət səviyyəsində gətirilib yerləşdirilməsi ilə bügünkü Qarabağ münaqişəsinin təməli qoyulurdu. Türkmənçay müqaviləsinin XV maddəsində göstərilirdi ki, erməni əhali Rusiyaya könüllü surətdə köçə bilərlər.

Göründüyü kimi, Rusiya ermənilərin burada məskunlaşaraq həmişə burada yaşamalarının qayğısına qalırdı, onlara hər cür yardımlar edirdi. Hətta erməni günah işləmiş olsa da, ona cəza verilmirdi, yüngül cəza alırdı. O zaman



Qarabağ əyalətində əhalinin tərkibi belə idi. 78,3% türk-müsəlman, 21,7% erməni idi. 1828-40-cı illər arasında Şimali Azərbaycana, o cümlədən Qarabağa İrandan, 40 min, Osmanlı İmperatorluğundan isə 90 min erməni köçürüldü. Amma bu rəqəm ikiqatdan da çox idi. Böyük rus tədqiqatçı alimi N.Şavrov özünün kitabında haqlı olaraq yazırdı ki, Cənubi Qafqazda yaşayan 1,3 milyon ermənin 1 milyonu gəlmə idi və bunu tutarlı faktlarla sübut edirdi. 1916-cı ildə Qarabağ xanlığının ərazilərində (təxminən 1923-də yaradılan, DQMV) ermənilərlə azərbaycanlıların sayı bərabərləşməyə yaxın idi (51% Azərbaycan türkləri, 46% erməni). Ermənilər bu bölgədə artıb çoxalmaqda idilər.

6657

"Böyük Ermənistan" xəyalı ilə yaşayan bu millətin öndə gedənləri artıq reallaşdıracaqları dövlətin xəritəsini Şimali Azərbaycanda cızırdılar. Çünki Osmanlı ərazilərində (nə Kilikiyada, nə də Şərqi Anadoluda) erməni dövləti qurmaq ideyası puç olmuşdu. Ermənilər 1915-ci il may ayının 27-də Osmanlının Təhcir ("Koç") Qanunu ilə bu ərazilərdən köçürülmüşdülər, çünki onlar I Dünya müharibəsi içində olan Osmanlı dövlətinə arxadan zərbələr vururdular. Müharibə aparan ölkə üçün isə bu xəyanət

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

idi və Osmanlının daxili işlər naziri Tələt paşanın ermənilləri bu bölgədən köçürməkdən başqa çarəsi qalmamışdı. Ermənilər Osmanlının bir ərazisindən digərinə (Suriyaya) köçürülmüşdülər, bir çox erməni tarixçinin iddia etdiyi kimi, onlara qarşı heç bir qeyri-qanuni hərəkətə yol verilməmişdi. Bu ermənilərin bir çoxunun Qarabağa gəlməsi də istisna deyil. Qarabağdakı qırğınlar zamanı Şərqi Anadoluda türklərə qarşı vuruşmuş komitəçilərin iştirak etdiyi də faktdır. Qarabağda separatçılığın əsası da əslində 1917-ci ildən sonra qoyuldu. 1917-ci ilin sonları və 1918-ci ilin ilk aylarında S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik qüvvələri həm Bakı, Gəncə, Şamaxıda, Zəngəzurda, həm də Qarabağda azərbaycanlılara qarşı əsil soyqırım törətmişlər.

### 3. Dağlıq Qarabağı Azərbaycandan qoparmaq cəhdləri

1918-ci ilin mayın 28-də Azərbaycanda Xalq Cümhuriyyəti elan olunanda Ermənistan da öz müstəqilliyini elan etdi və dərhal Qarabağa iddiasını irəli sürdü. Onlar məkrli planlarını həyata keçirmək üçün burada qırğınlar törətməyə başladılar. 1919-cu ilin əvvəlində AXC



hakimiyyəti məcburən bu bölgədə – yəni Cavanşir, Şuşa, Zəngəzur və Cəbrayıl qəzalarını birləşdirən bir qurum – Qarabağ general-qubernatorluğu yaratdı. Xosrov bəy Sultanovun başçılığı ilə müəyyən dövr burada qayda-qanun yaradıldı. Burada yaşayan erməni əhali sülh içərisində yaşamaq istəyirdi, buna görə qurultay keçirərək general-qubernatorun sülh və əmin-amanlıq siyasətinə dəstək də vermişdi. Ermənilər Qarabağ münaqişəsi ilə bağlı məsələlərdən söz açanda heç zaman Qarabağ Ermənilərinin VI Kəndli Qurultayından bəhs etmirlər. 1919-cu ilin avqust ayında keçirilmiş həmin qurultayda ermənilər AXC-in təklif etdiyi "Müvəqqəti sazişi" can-başla qəbul etmişlər. Həmin sazişdə Qarabağ erməniləri Azərbaycan hakimiyyətini faktiki qəbul edirdilər. O zaman ayrı çarələri də yox idi.

Lakin 1919-cu ilin sonları və 1920-ci illərin əvvəllərində Qarabağ ətraf rayonları, xüsusən, Zəngəzurda və Cavanşir qəzasının bəzi kəndlərinə erməni basqınları Şuşa qəzasında da vəziyyəti gərginləşdirdi. Şuşa qırğınları baş verdi. 1920-ci ilin aprel işğalı ərəfəsində ermənilər Qarabağda separatçılıq hərəkətlərinə artırmışdılar və bu da səbəbsiz deyildi. 1920-ci ilin

əvvəllərində Qarabağ ermənilərinin hərəkətlərini 1990 və öncəsi edilən separatçılıqla müqayisə etmək olar. O zaman da ruslardan işarələr gəlirdi ki, onlar tək deyillər, arxalarında xristian Rusiyası var və Ermənistan (Ararat) Respublikasının Qarabağda general-qubernatorluq yaradılmasına etiraz bildirməsi də dolayısı ilə bu ərazilərə iddialar irəli sürəcəklərinə işarə idi. Azərbaycan hökumətinin burada başının qarışdırılması xüsusi "erməni planı" idi və bu zərbə ilə dövlətin şimal sərhədlərinin müdafiəsi işi zəifləmiş olurdu və aprel istilasını yaxınlaşdırıldı.

AXC hakimiyyəti əslində Qarabağda dövlətimizin suveren hüquqlarını bərpa etmişdi. 1918-ci ilin 18 oktyabr sayında "Azərbaycan" qəzeti yazırdı ki, "ermənilər Xan Xoyskinin yanına bir nümayəndə heyəti göndərmək istəyirdilər ki, bu qırğınlara son qoyulsun" və yenə də həmin qəzet yazırdı ki, erməni quldur dəstələri Qarabağda türk hakimiyyətinə müraciət etmişlər ki, silahlarını təhvil versinlər və onlar əfv olunsun. Andranikə gəlincə, o İrəvan istiqamətinə qaçmışdır.

Ermənilərin Azərbaycan hakimiyyətini sovetlərin ilk zamanlarında da qəbul etdiklərini



təsdiq edən çoxlu faktlar var. Onlardan biri isə daha maraqlıdır. PK(b)P-nin Qafqaz Bürosunun üzvü A.İ.Mikoyanın V.İ.Leninə göndərdiyi bir raport-məktubda görün ermənininin özü nə yazırdı:

**"Daşnaklar – erməni hökumətinin agentləri istəyirlər ki, Qarabağı Ermənistana birləşdirsinlər, bu isə Qarabağ əhalisini Bakı kimi bir həyat mənbəyindən məhrum etmək deməkdir, bu xalqı İrəvana bağlamaq çox anlamsız bir işdir.**

**Erməni kəndliləri özlərinin qurultayında qərara gəliblər ki, Sovet Azərbaycanını qəbul edib onun tərkibində qalsınlar".**

Digər bir partiya funksioneri olan Levon Mirzoyan 1923-cü ildə yazırdı:

**"Qarabağ məsələsinin təmiz şəkildə həlli yoxdur. Erməni kəndlisi bildirir ki, o Bakı və Ağdamla sıx əlaqə qurmadan yaşaya bilməz və yolun təhlükəsiziiyinin, mədəni cəhətdən inkişafın təmin olunması lazımdır".**

Bütün bunlar o demək idi ki, burada yaşayan erməni millətindən olan əhali Azərbaycandan, Bakıdan təcrid olunmaq, ayrılmaq istəmirdi. Erməni Kəndlilərinin VI Qurultayının qərarı da belə olmuşdu. Azərbaycanın baş na-

ziri və hərbi naziri 1919-cu ilin avqustunda Qarabağa gələrkən Şuşanın erməni bazarında ermənilər öz əlləri ilə bir plakat yazıb asmışdılar. "Yaşasın Azərbaycan Respublikası".

Azərbaycan və Ermənistan sovetləşəndən sonra ərazi məsələlərini artıq Qafqaz Bürosu müzakirə edirdi və Ermənistanın Dağlıq Qarabağın ermənilərə məxsusluğu barədə verdiyi Bəyamnaməni QB-nun qəbul etməsi təbii olaraq Azərbaycanın ciddi etirazına səbəb oldu. Sonrakı proseslərdə ermənilər yenə də mərkəzin köməyi ilə heç bir haqqı olmadan Dağlıq Qarabağda muxtariyyət statusu aldılar. Elə bu da gələcək münaqişələrin təməlini qoymuş oldu. Halbuki Ermənistan ərazisində toplum halında Azərbaycan türkləri yaşayırdılar, onlara da belə "özünütəyinetmə hüququ" verilə bilərdi. Lakin bunların heç biri olmadı.

İstinad etdiyimiz sənədlərdə də açıq-aydın görünür ki, Qafqaz Bürosu "oyun oynamışdır", ilk iclaslarında Qarabağı Ermənistana "vermiş", sonrakı iclaslarında isə "rəhmə gəlib" onu Azərbaycanın tərkibində saxlamışdır. Xatırladaq ki, bu sənədə Stalinin özü də səs vermişdi. Əslində nəticə ermənilərin xeyrinə olmuşdur, Azərbaycanın tərkibində bir qurum (ermənilərə məxsus) yaradılmışdır, bu isə hər zaman dövlətimiz üçün başağrısı olacağı anlamına gəlirdi. Bu sənədlərə fikir verin:

**"RK (b)P MK Qafqaz Bürosu plenumunun axşam iclasının protokolundan**

**İştirak edirlər:** *RKP MK üzvü Stalin, Qafbüronun üzvləri: Orconikidze, Maxaradze, Kirov, Myasnikov, Nazaretyan, Oraxelişvili və Fiqatner. Komsomolun Qafbürosunun katibi Breytman, Gürcüstan MK üzvləri: Çindadze, Mdivani və Svanidze. 4 iyul 1921-ci il*

**Dinlənildi:**

5.Qarabağ məsələsi: bu məsələnin müzakirəsində iki fikir aşkar olundu və aşağıdakı məsələlər səsə qoyuldu:

**a) Qarabağı Azərbaycanın hüdudlarında saxlamaq;**

**b) Bütün Qarabağda, bütün erməni və müsəlman əhalinin iştirakı ilə ümumxalq rəy sorğusu keçirmək;**

**v) Qarabağın dağlıq hissəsini Ermənistanın tərkibinə daxil etmək;**

**q) Yalnız Dağlıq Qarabağda b. s. ermənilər arasında rəy sorğusu keçirmək.**

6. Qarabağ məsələsinin Azərbaycan üçün xüsusi əhəmiyyətini nəzərə alaraq, yol. Nəri-

manәv buna hәlledici qәrar verilmәsi üçün mәsәlәnin RKP MK-ya keçirilmәsinin zәruri hesab edilmәsi barәdә tәklif etdi.

**Qәrar verdilәr:**

*Lehinә sәs verdilәr*: Nәrimanov, Maxaradze, Nazaretyan;

*Əleyhinә*: Orconikidze, Myasnikov, Kirov, Fiqatner;

*Lehinә sәs verdilәr*: Nәrimanov, Maxaradze;

*Lehinә sәs verdilәr*: Orconikidze, Myasnikov, Fiqatner, Kirov;

*Lehinә sәs verdilәr*: Orconikidze, Myasnikov, Fiqatner, Kirov, Nazaretyan.

**Qәrara alındı: *Dağlıq Qarabağ Ermәnistanın tәrkibinә daxil edilsin, yalnız Dağlıq Qarabağda rәy sorğusu keçirilsin.***

**Qarabağ mәsәlәsinin ciddi fikir ayrılığına sәbәb olmasını nәzәrә alaraq, RKP MK Qafbürosu onun qәti olaraq hәll edilmәsi üçün RKP MK-ya keçirilmәsini zәruri hesab edir.**

**Qarabağ mәsәlәsi haqda sәsvermәdә yol. Oraxelişvili iştirak etmәdi.**

**RKP MK Qafbürosunun katibi Fiqatner.**



Sәnәdin altına görün kimlәr imza atmışlar.

**Stalin** *(Çuqaşvili) İosif Vissarionoviç (1879-1953) – hәmin dövrdә millәtlәrin işlәri üzrә xalq komissarı (1917-1922) idi;* **Orconikidze** *Qriqori Konstantinoviç (Serqo) (1886-1937);* **Maxaradze** *Filipp İeseyeviç (1868-1941) – Gürcüstan HİK-nin sәdri;* **Nәrimanov** *Nәriman Kәrbәlayi Nәcәf oğlu (1870-1925) – Azәrbaycan XKS-nin sәdri (1920-1922);* **Kirov** *(Kostrikov) Sergey Mironoviç (1886-1934);* **Myasnikov** *(Myasnikyan) Aleksandr Fyodoroviç (1886-1925) – Ermәnistan HİK-nin sәdri;* **Nazaretyan** *Amayak Markaroviç (1889-1937) – 1920-1922-ci illәrdә QB-nun katibi, Grücüstan HİK-nin vә K(b)P MK-nın üzvü;* **Oraxelaşvili** *İvan (Mamiya) Dmitriyeviç (1881-1937) – 1921-ci ilin martından Gürcüstan HİK-nin üzvü, K (b) P MK-nın katibi vә XKS sәdri;* **Fiqatner** *Yuri Petroviç (Yakov İsaakoviç) (1889-1937) – 1921-ci ilin martından QB-nin katibi.*

Bununla әlaqәdar digәr bir sәnәdә diqqәt edәk:

**RK(b)MK Qafqaz Bürosu plenumunun iclas protokolundan**

**5 iyul 1921-ci il**

**İştirak edirlər:**

*MK üzvü Stalin, Qafbüronun üzvləri: yol. Orconikidze, Kirov, Oraxelişvili, Fiqatner, Nərimanov, Myasnikov, Azərbaycan SSR Xalq Xarici İşlər Komissarı Hüseynov.*

**Dinlənildi:**

**1. yol. Orconikidze və Nazaretyan əvvəlki Plenumun Qarabağ haqqında qərarına yenidən baxılması məsələsini qaldırdılar.**

**Qərar verdilər:**

**Müsəlmanlar və ermənilər arasında milli sülhün zəruriliyindən yuxarı və aşağı Qarabağın Azərbaycanla kifayət qədər iqtisadi əlaqələrini nəzərə alaraq, Dağlıq Qarabağ ASSR tərkibində saxlanılsın, ona muxtar vilayətin tərkibində saxlanılan, inzibati mərkəzi Şuşa şəhəri olmaqla geniş vilayət muxtariyyəti verilsin.**

**Səs verdilər - 4 lehinə, 3 bitərəf.**

**Azərbaycan MK-ya tapşırılsın ki, sonradan RKP MK Qafbürosunun təsdiqinə verməklə muxtar vilayətin sərhədlərini müəyyən etsin.**

**RKP MK Qafbürosunun Rəyasət Heyətinə Dağlıq Qarabağın Fövqəladə Komitəsinə namizəd haqqında razılaşmanı Azərbaycan və Ermənistan MK ilə aparması tapşırılsın.**



**Azərbaycan MK tərəfindən Dağlıq Qarabağın muxtariyyət həcmi müəyyən edilsin və təsdiq üçün MK Qafbürosuna təqdim edilsin.**

QB-nun 5 iyul 1921-ci qərarının Azərbaycana qəbul etdirilməsi üçün təzyiqlər olmuşdur. Dağlıq Qarabağın muxtariyyətləşdirilməsi üçün fəaliyyət meydanı təkcə Qafqaz Bürosu olmamışdır. SSRİ-nin yaradılmasından sonra isə 1923-cü ilin iyulun 4-də Azərbaycan Sovetləri MİK-in artıq S.M.Kirovun sədrliyi ilə Qarabağ haqqında məsələni dinləyərək 6 bənddən ibarət qəbul etdiyi qərar bunu təsdiq edir.

Dekretdə qurumun Muxtar Dağlıq Qarabağ Vilayəti adlandırılması diqqəti cəlb edir, sonralar nə üçünsə o Dağlıq Qarabağ Muxtar Vilayəti adlandırılır. Dağlıq Qarabağın muxtariyyətləşməsi Qarabağın tarixi-coğrafi vahidliyinə və inkişafına çox mənfi təsir etmişdir. Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi elmi-coğrafi deyil, ermənilərin sayına üstün olduğu lokal ərazilərin süni bir qurum altında birləşməsi prinsipini özündə ehtiva etmişdir. Hələ o

zaman ermənilərin sayının saxtalaşdırılaraq 170 əvəzinə 215-nin olaraq göstərilməsi də buna xidmət edirdi. Bu da əhalinin say tərkibini artırmaq yolu ilə və DQMV ərazisi yeni yaşayış məskənləri (digər rayonların ərazisindəki kəndlər hesabına) hesabına genişləndirilmişdi. Azərbaycana rəhbərlik edən şəxslər milli məsələnin başağrısı olduğunu nəzərə alıb liberallıq göstərmiş və ermənilər bundan yetərincə faydalanmışlar.

Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalması ilə barışan (əslində ermənilər üçün bundan başqa yol yox idi) və bunu özləri üçün müəyyən dövr üçün "böyük qələbə" sayan erməni ideoloqları DQMV-nin bütün mövcud olduğu dövrdə onu Azərbaycandan qoparmaq taktikası yürütmüşlər. Ermənilərin böyük əksəriyyəti DQMV-də yaşamasa da, onlar buradan qeydiyyatdan çıxmamış, necə deyərlər adlar bu vilayətin əhalisi hesabına yazılmışdı. Bütün dövrlərdə əhalinin siyahıya alınması saxtalaşdırılmışdı. Hətta bu hal məktəb və müəllimlər, şagirdlərin sayında da özünü göstərmişdi. Dağlıq Qarabağın ən sıx yaşayış məskənlərində orta məktəbin bir sinfində 25 şagird oxumalı olduğu halda orada say 15-dən yuxarı olma-



mışdı. Əhalinin artımı məsələsində də "erməni əli" ustalıqla işləmişdi. 1921-1939-cu illərdə ermənilərin vilayətdə faktiki artımı 3,6% olduğu halda hesablamalarla o 38,5%-ə, azərbaycanlıların isə sayı faktiki artımı 46,1% olduğu halda o 23,1%-ə endirilmişdi. Bu saxtakarlıq o dövrün siyasi çevrələrində səslənsə də, Sovetlər İttifaqı bu işi də ört-basdır eləməyi daha düzgün saymışdı.

Dağlıq Qarabağda əhali azərbaycanlıların hesabına artsa da, bu ermənilərin ayağına yazılmışdı. Rəsmi statiskaya görə isə 1939-cu ildə DQMV bütün 150,8 minlik əhalisinin 132,8 mini erməni kimi göstərilmişdi, azərbaycanlılar 14,1 min idilər. 1959-cu ildə DQMV-ın ümumi əhalisi 130,3 minə enmişdi, onun 110,1 mini erməni, 18 mini (4 min artmışdı) azərbaycanlılar idi. 1970-də 150,3 min əhalinin 121,1 mini erməni, 27,2 min nəfəri azərbaycanlılar idi. 1979-cu ildə 162,2 min əhalinin 123,1 mini erməni, 37,3 mini azərbaycanlı idi. 1970-ci ildə ermənilər 80 faiz təşkil edirdilərsə, 1979-da onların 75,9 idi. Azərbaycanlılar isə 10 faiz artmışdılar. Yenə də deyirik ermənilər nə qədər saxtalaşdırsalar da, azərbaycanlıların say etibarı ilə artmasını qeyd etməli ol-

muşdular. Erməni araşdırmaçı V.Barsuqova görə, bu ona görə edilmişdi ki, ermənilərin dusskraminasiyaya uğraması, köçə zorlanması barədə haray-həşir salınsın.

1989-cu ildə münaqişənin başlanğıc dövründə Sovet əhalini siyahıyaalmasına görə DQMV-in 187,8 min əhalisinin 145,4 mini (77%) ermənilər idi. Azərbaycanlılar ötən 10 ildə 2% azalmışdı. Onların sayı 40,3 min idi. (21,5%). Göründüyü kimi ermənilər burada say tərkibinin dəyişməsindən çox narahat idilər və bunu ona bağlamağa çalışırdılar ki, guya DQMV-də ermənilər üçün yaşam şərtləri çox ağırdır, Azərbaycan onlara qarşı milli-etnik diskriminasiya tətbiq edir, onların iqtisadi-sosial şəraiti ağır olduğundan köç etməyə məcbur olurlar və s.

Biz bu tədqiqatımızda bütün bu erməni iddialarının məhz bəhanələr olduğunu Azərbaycana qarşı məkrli bir siyasətin yürüdülməsini və son nəticədə DQ-ın Azərbaycanın tərkibindən çıxarılması üçün siyasi gedişlər olduğunu ortaya qoymağa çalışacağıq. Əribaşdan söyləməliyik ki, Dağlıq Qarabağ əhalisinin sosial-iqtisadi durumu, bu bölgə ilə yanaşı olan digər Azərbaycan rayonlarının sosial-iqtisadi durumundan xeyli dərəcədə yaxşı olmuşdur. Bu bir danılmaz həqiqətdir ki, Dağlıq Qarabağın vilayət statusu alması onun sosial-iqtisadi inkişaf etməsi üçün müstəsna imkanlar erməniləri bu bölgədə qalıcı vəziyyətə gətirdi, onlar üçün yad bir məmləkətdə, onlara qucaq açmış bir diyarda milli-mədəni inkişafa nail oldular, amma çox təəssüf ki, onlara bu şəraiti yaratmış xalqa və dövlətə xəyanət etdilər.

Rusiya Elmlər Akademiyasının akademiki Abel Aqanbenyan Fransada "Humanite" qəzetinə verdiyi müsahibədə DQMV iqtisadiyyatından danışarkən onun geri qaldığını bildirmişdi, DQMV-in Ermənistana birləşdirilməsinin daha məqsədəuyğun olduğu fikrini irəli sürmüşdü. Görəsən o bu fikirləri söylərkən hansı məntiqə söykənmişdi? Dönəmin SSRİ rəhbəri Mixail Qorbaçova yaxınlığı ilə seçilən həmin şəxsin bu iddiaları adi şovinizm idi ki, o da məlum xəstəliklə – "erməni xəstəliyi" ilə muşayiət olunmuşdu. Dağlıq Qarabağ Vilayətinin mərkəzi olan Xankəndi (o zaman Stepanakert) şəhərindəki bu "xəstəlik"lə yoluxanlar da fürsəti fövtə vermək istəmədilər. Onların adamı hakimiyyətə gəlmişdi, çox çəkindikləri azərbaycanlı lider Heydər Əliyev isə 1987-ci

ilin oktyabrından istefa vermiş, artıq Kremldə deyildi. Deməmk Dağlıq Qarabağı Azərbaycandan ayırmaq üçün münasib məqam yetişmişdi. Bəhanə də vardı. Sosial-iqtisadi gerilik, Azərbaycanın milli-mənəvi basqıları və s. Bütün bunların mənzərəsi necə idi, biz bunlardan bir qədər sonra bəhs edəcəyik. İndilik gəlin görək DQ-in mövcud olduğu dövrdə onu Azərbaycandan ayırmaq üçün edilən cəhdlərin kökündə hansı bəhanələr dururdu?

Erməni separatizminin əsasını da saxtakarlıq yolu ilə başqasının olanına yiyə durmaq üçün fəaliyyət göstərmək təşkil edir. Dağlıq Qarabağ heç zaman ermənilərə məxsus olmamışdı, amma buranın gözəl təbiəti, verimli torpağı və strateji əhəmiyyəti onu əldə etmək üçün erməniləri iştahalandırmışdı.

Onu Azərbaycandan qoparmaq üçün Sovet dövründə də cəhdlər edilmişdi. Ermənilər DQ-nin onlara məxsusluğunu bildirmək üçün öncə sınanmış üsullardan istifadə etməyə cəhd etmişdilər: müxtəlif ölkə mətbuatında çıxışlar etmək, kitablar yazıb başqa dillərə tərcümə edərək yaymaq və s. Ermənilər Qarabağ təxribatına 20-ci illərdə başlamışdılar. Amma bu illərdə onlar yalnızca rus və digər ölkələrdəki



oxucuları "Dağlıq Qarabağ erməni yurdudur", "Dağlıq Qarabağ Ermənistanın kübar vilayətidir", "Artsax – qədim erməni yurdu"dur və s. kimi yalanlara inandıra bildilər. Bundan o yana gedə bilmirdilər. Sovet rejiminin qoyduğu qadağalar erməniləri bir qədər "səbr etməyə" sövq etdi.

Böyük Vətən Müharibəsi illərində ölkənin başı qarışan kimi yenidən DQ-ın Ermənistana verilməsi təxribatını gündəmə gətirdilər. 1945-ci ilin noyabrmda Ermənistan KP MK-nın katibi Q. Arutyunov İ.Stalinə müraciət ünvanyaraq DQMV-nin Ermənistanın tərkibinə verilməsini istədi. Həmin müraciət Azərbaycan KP MK-nin birinci katibi Mircəfər Bağırova göndərildi. Bağırovun buna cavab olaraq Moskvaya yazdığı məktubda ermənilərin bu fikrinin təxribatçı, avantürist və heç bir əsası olmayan sərsəm düşüncələrdən ibarət olduğu bildirilir və kəskin etiraz olunur. Həmin məktubun mətnindən bəzi hissələr bizim məqsədimizlə üst-üstə düşdüyündən onu olduğu kimi verməyi məqsədəuyğun hesab edirik:

*"Ermənistan Kommunist (bolşeviklər) Partiyası MK-nın katibi Arutyunov yoldaşın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan*

*SSR-nin tərkibinə daxil edilməsi haqqında təklifi ilə əlaqədar Sizin teleqramınıza cavab olaraq məlumat verirəm:*

*Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi qədim zamanlardan, mərkəzi 1747-ci ildə Qarabağlı Pənah xan tərəfindən qala kimi tikdirilmiş Pənahabad şəhəri olan Qarabağ xanlığının tərkibində olmuşdur.*

*1826-cı ildə Qarabağ çar Rusiyasına birləşdirilmişdir. Sonralar indiki Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi Yelizavetpol quberniyasının Şuşa, Cavanşir, Qaryagin və Qubadlı qəzalarının tərkibində olmuşdur.*

*1918-1920-ci illərdə müsavatçıların Azərbaycanda və daşnakların Ermənistanda ağalığı dövründə müsavat hökuməti tərəfindən mərkəzi Şuşa (keçmiş Pənahabad) şəhəri olan general - qubernatorluq təşkil edilmişdir.*

*Müsavatçılar və daşnaklar tərəfindən təşkil olunmuş millətlərarası qırğının nəticəsində Azərbaycanın və Ermənistanın bir çox şəhərləri kimi, Şuşa da dağıdılmış və xarabalığa çevrilmişdir.*

*1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra ilk dövrlərdə bütün Qarabağın təsərrüfat - siyasi həyatına rəhbərlik vahid Vilayət İnqilab Komitəsi tərəfindən həyata keçirilirdi.*

*1923-cü ildə Qarabağın əsasən ermənilərin məskunlaşdığı dağlıq hissəsinin Ermənistan SSR-yə birləşdirilməsi məsələsi qaldırıldı. Lakin bu ərazinin Ermənistan SSR ilə ümumi sərhədlərinin olmaması və Ermənistandan yalnız azərbaycanlıların yaşadığı Qubadlı, Laçın, Kəlbəcər və Dəstəfur rayonları ilə ayrılması səbəbindən, partiya orqanlarının göstərişi əsasında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 7 iyul 1923-cü il tarixli dekreti ilə mərkəzi Xankəndi, indi Stepanakert adlanan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı.*

*Beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayəti ərazi cəhətdən heç vaxt Ermənistan SSR-də bitişik olmamışdır və hazırda da bitişik deyildir.*

*Azərbaycanda Sovet hakimiyyəti illərində Dağlıq Qarabağda vilayətin təsərrüfat - siyasi və mədəni inkişafı sahəsində böyük işlər görülmüşdür. Bu inkişafın ən parlaq nümunələrdən biri – DQMV-nin hazırki mərkəzi Stepanakert şəhərinin başlı-başına buraxılmış və dağıdılmış bir kənddən Azərbaycanın ən gözəl, abad və mədəni şəhərlərindən birinə çevrilməsidir.*

*Azərbaycan SSR-nin bütün ali təhsil məktəbləri və texnikumları tələbələrinin 20,5%-ni, əksəriyyəti Dağlıq Qarabağ Muxtar Vilayətindən olan ermənilər təşkil edir.*

*Respublikanın partiya, sovet, təsərrüfat rəhbərləri – Azərbaycan K(b)P MK-nın katibləri, müavinləri, xalq komissarları müavinləri və s. arasında Dağlıq Qarabağdan olan yoldaşlar da az deyildir.*

*Bununla belə biz Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-nin tərkibinə qatılmasına etiraz etmirik, lakin Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində olmasına baxmayaraq, hazırda da əsasən azərbaycanlıların yaşadığı Şuşa rayonunun Ermənistan SSR-yə verilməsinə razı deyilik.*

*Şuşa şəhəri bina edildiyi gündən Qarabağın inzibati-siyasi və mədəni mərkəzi olmaqla yanaşı, həm də Azərbaycan xalqının öz müstəqilliyi uğrunda İran işğalçıları ilə apardığı mübarizədə müstəsna rol oynamışdır.*

*Ən qaniçən fatehlərdən biri, Zaqafqaziya xalqlarının cəlladı Ağa Məhəmməd şah Qacar məhz Şuşada öldürülmüşdür.*

*Azərbaycan xalqının zəngin musiqi mədəniyyəti bu şəhərdə formalaşmışdır. İbrahim xan, Vaqif, Natəvan və digər bu kimi görkəmli siyasət və mədəniyyət xadimlərinin adları onunla bağlıdır.*

*Eyni zamanda, ÜİK(b)P MK-nin nəzərinə çatdırmağı zəruri hesab edirik ki, DQMV-nin Ermənistan SSR-in tərkibinə daxil edilməsi məsələsinə baxılarkən, Ermənistan SSR-in Azərbaycan Respublikasına bitişik olan və əsasən azərbaycanlıların yaşadığı Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR-nin tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır.*

*Bu rayonların mədəni və iqtisadi cəhətdən son dərəcədə geridə qalmasını nəzərə almaqla, bunların Azərbaycana verilməsi əhalinin maddi-məişət şəraitini və ona mədəni-siyasi xidmət işini yaxşılaşdırmağa imkan yaradardı.*

*ÜİK(b)P MK-dən yuxarıda göstərilənlərdən əlavə aşağıdakı məsələlərə baxılmasını xahiş edirik:*

*Gürcüstanlı yoldaşlar Azərbaycan SSR-nin Balakən, Zaqatala və Qax rayonlarının Gürcüstan SSR-nin tərkibinə daxil edilməsi məsələsini qoyurlar.*

*Göstərilən rayonlarda əhalinin ümumi sayı 79.000 nəfər olduğu halda, 9.000 gürcü-in-*

*giloyun yaşamasına baxmayaraq, biz bu məsələyə baxılmasına etiraz etmirik, lakin bu məsələ ilə bir zamanda, Gürcüstan SSR-nin, demək olar, yalnız azərbaycanlıların yaşadığı və bilavasitə Azərbaycan SSR-yə bitişik olan Borçalı rayonunun Azərbaycan SSR-nin tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır.*

*Və nəhayət biz, Dağıstan SSR-nin keçmişdə Azərbaycanın bir hissəsi kimi Bakı quberniyasının tərkibinə daxil olan və hazırda Azərbaycan SSR-yə bitişik olan Dərbənd və Qasımkənd rayonları ərazilərinin Azərbaycan SSR-nin tərkibinə qatılması məsələsini nəzərdən keçirmənizi xahiş edirik. Bu rayonların əhalisi əsasən azərbaycanlılardan ibarətdir, özü də maldarlıqla məşğul olan bu əhalinin yarıdan çoxu ilin doqquz ayını Azərbaycan ərazisində keçirir.*

*Qaldırılmış bütün məsələlər üzrə təkliflərin hazırlanması üçün tərkibinə marağı olan hər bir respublikadan nümayəndələr daxil edilməklə ÜİK (B)P MK komissiyasının yaradılmasını məqsədəuyğun hesab edirik.*

*10 dekabr 1945-ci il No. 1330. Bakı şəhəri.*

Həmin illərdə bu məsələnin qarşısı alınsa da, Ermənistan öz dədə-baba yurdlarından 100 minlərlə azərbaycanlını dövlət səviyyəsində deportasiya etdirməyə nail oldu. 1848–1853-cü illərdə xalqımıza vurulan yaralar hələ də sağalmayıb. Ən böyük yara bu insanların, bu binəsiblərin itirdikləri doğma yurd və vətən olmuşdur.

1960-cı illərdə Dağlıq Qarabağda genişlənən milliyyətçilik dalğası və erməni "oyunları" yenidən DQMV-nin Ermənistana birləşdirilməsi arantürasını ortaya atmışdır. Ermənilər bu dəfə başqa yol seçmişdilər, onlar 45 min nəfərin imzasını toplayaraq Mərkəzdən onları "Azərbaycanın əsarətindən" xilas etməyə xahiş edirdilər. MK həm Ermənistana, həm də Azərbaycana "təkliflər paketi" hazırlaması tapşırmışdı. 1977-ci ildə SSRİ Konstitusiyası qəbul edilməsi ərəfəsində yenə də SSRİ rəhbərliyi səviyyəsində məsələ qaldırılarkən bu işin mümkün olmayacağı onlara bildirilmişdi.

Nəhayət, 1988-ci il. Yeni separatizm dalğası baş qaldırarkən Moskvadakı bəlli siyasi çevrələr onlara açıq və gizli dəstək verməyə başladılar. DQ tədricən Azərbaycandan qoparılmağa başladı. "Miatsum", "Krunk" təşkilatlarının Qarabağ Komitəsinin açıq fəaliyyətinə imkan verildi. Burada Moskvanın tətbiq etdiyi xüsusi idarəçilik aparatı da ona xidmət edirdi ki, Dağlıq Qarabağ Azərbaycandan qoparılsın. Ermə-

*nilər yenə də* eyni bəhanələrlə öz işlərini gördülər. Guya ki, vilayətdə iqtisadi gerilik var, sosial inkişaf yoxdur, erməni milləti sıxışdırılır.

Halbuki Dağlıq Qarabağ işğalaqədər özünün çox böyük inkişafını təmin etmişdi. Çox təəssüf ki, bəzi erməni ideoloqları və onların xaricdəki havadarları bu xüsusiyyəti inkar etmək yolu tutdular və ilk dövrlərdə dünya ictimaiyyətinin onlara inanmasına nail oldular. Ermənilər nə üçün bu yolu tutmuşdular? Nə üçün ağ yalan danışaraq Dağlıq Qarabağda həyat şəraitinin dözülməz olduğunu önə çəkirdilər? Bunun sadə bir cavabı var. Onlar bunları qabartmaqla Azərbaycanla bir yerdə yaşamağın qeyri-mümkün olması barədə cəfəng təsəvvürlər yaratmağa çalışırdılar. Onların bu təbliğatından sonucda bu nəticə çıxacaqdı ki, ermənilərlə azərbaycanlılar bir arada yaşaya bilməz, demək Dağlıq Qarabağ Azərbaycandan ayrılmalıdır. 1988-ci ildə DQMV Xalq Deputatları Sovetinin qərarı da "bu əsaslar" üzərində işlənib ortaya atılmışdı.

Dağlıq Qarabağı Azərbaycandan ayırmaq üçün onların əllərində heç bir elmi əsas yox idi. Bütün tarixi dövrlərdə Qarabağın dağlıq hissəsi ilə aran hissəsi arasında bir bağlılıq olmuşdur. Qarabağ vahid təbii inkişafını dağ və aran hissləri ilə bir yerdə tapmışdır, coğrafi region kimi də həm iqtisadi, həm də siyasi gəlişmələr vahid bir Qarabağ anlayışı doğurmuşdur. DQMV-ın yaradılması və regionun bir-birindən şərti də olsa ayrılması tamamilə yanlış bir addım idi. Amma buna baxmayaraq, DQMV üçün yaradılmış müstəsna şərait onun inkişafını təmin edirdi.

Azərbaycan rəhbərliyi sonradan başağrısı olmaması və Mərkəzin danlağını götürməmək üçün DQMV-ə xüsusi diqqət ayırırdı. Büdcə tərtib olunarkən ona xüsusi diqqət edilirdi ki, "erməni qardaşlarımız" narazı qalmasınlar. Buna görə də DQMV Azərbaycanın aqrar-sənaye bölgəsi kimi inkişaf etməyə başladı. Azərbaycanın ətraf rayonları (xüsusən Aran Qarabağı DQMV-in xammal bazasına çevrildi. Məsələn, burada inşa edilmiş Qarabağ Toxuculuq Kombinatına xammal digər rayonlardan hətta Şəkidən (ipək) gətirilirdi. ətraf rayonlarda pambıqçılıq sahəsi prioritet sahə kimi saxlanılsa da, Dağlıq Qarabağın düzənlik ərazilərindən pambıq əkinini ləğv etdilər. Ermənilər "qul əməyi" hesab edilən pambıqçılıqla məşğul olmağı özlərinə sığışdırmadılar və Azər-

baycan onların bu inadına qarşı gedə bilmədi. Sənayenin və emaledici sahələrin DQMV-də inkişaf etdirilməsi ilə burada həyat səviyyəsi də yüksəldi. Qarabağın dağlıq hissəsində məskunlaşanlar aran hissəsində yaşayanlardan daha yaxşı həyat şəraiti qurmağa başladılar. Halbuki bunlar əksinə olmalı idi. Bax, Azərbaycan Dağlıq Qarabağ ermənilərinə bu imkanı verdi.

Dağlıq Qarabağın təbii gözəlliyi, havası-suyu onun kurort-sanatoriya sektorunda uğur qazanmasına səbəb oldu. Burada istirahət mərkəzləri tikilməyə başladı. Yay dövründə buraya axın DQMV büdcəsini zənginləşdirdi. Dağlıq Qarabağda mədəni inkişaf, erməni xalqının milli mənada inkişafı təmin olunurdu. Onlara heç bir qadağa yox idi. Öz dillərində təhsil alırdılar. Regionda yeganə ali məktəb Xankəndi şəhərində idi. Dağlıq Qarabağa Azərbaycanın digər rayonlarından gedənlərə "qonaq" kimi baxırdılar. Ermənilərin üstün durumu onların milliyyətçiliyini artırıb və etnik eqoizm yaradırdı.

Dağlıq Qarabağa sıx-sıx gedib gələn şəxslərdən biri kimi, deyə bilərəm ki, Sovet idarəçilik sisteminin basqıları burada daha az idi. Azərbaycan isə burada bir ehtiyatlı siyasət sərgiləməkdə idi. Bu, sonralar çox ağır nəticə-lərə gətirib çıxaracaqdı. Bölgədə son dərəcə sərbəst olan ermənilər artıq Dağlıq Qarabağın Azərbaycana aid olmadığını açıq bəyan edirdilər. Hələ SSR-nin kəshakəs vaxtlarında ara-sıra mətbuatda DQMV-ni Ermənistanın ərazisi kimi təqdim edirdilər. Məsələn, Şuşada anadan olmuş bir rəssamdan – Gürcüyandan bəhs edən populyar "Oqonyok" jurnalı yazırdı ki, "Gürcüyan Ermənistanın Dağlıq Qarabağ vilayətinin Şuşa şəhərində anadan olub". Belə "səhvləri" digər mətbuat orqanları da edirdilər.

Ermənilər hələ Sovet Birliyi zamanında gizli təşkilatlar quraraq Dağlıq Qarabağın Azərbaycandan ayrılması ideyasını yayırdılar. Onlar bu istiqamətdə yaxşı da təşkilatlanmışdılar. "Qarabağ hərəkatı" dedikləri proseslərə rəvac verərkən ermənilərin "Qarabağ Komitəsi", "Krunk" ("Durna") və "Miatsum" ("Birləşmə") adlı çoxyönlü fəaliyyət göstərən təşkilatları var idi.

## 4. Təbii coğrafi region... və inkişafın Dağlıq Qarabağ nümunəsi

Ermənilər Dağlıq Qarabağa verilən bu Muxtar Vilayət statusundan istifadə edərək onu iqtisadi cəhətdən Azərbaycan ayırmağa

hələ SSRİ vaxtlarında cəhd etmişdilər. Akademik Budaq Budaqovun hadisələr qızışarkən bir toplantıda dedikləri olduqca maraqlıdır: "...Axı Dağlıq Qarabağ Aran Qarabağda (Ağdam, Mirbəşir (Tərtər), Ağcabədi, Füzuli, Cəbrayıl) və respublikanın Qərb regionları (Kəlbəcər, Laçın, Qubadlı rayonları) ilə birlikdə bütöv təbii-coğrafi region, kompleks ekoloji sistem, vahid çay şəbəkəsi, qarşılıqlı surətdə bağlı iqtisadiyyat və kommunikasiya əmələ gətirirlər".

Qarabağın təbii-coğrafi və iqtisadi birliyinin, onun digər regionlarla qarşıhqlı əlaqələrinin təbiiliyinin həyati əhəmiyyəti olan kommunikasiyalar – Ağdam-Stepanakert (Xankəndi) dəmiryol xətti, avtomobil yolları, qaz kəməri, elektrik təchizatı xətləri ilə bağlıdır ki, bu da Muxtar Vilayətin xalq təsərrüfatının səmərəli fəaliyyəti üçün son dərəcə zəruridir. Başqa sözlə desək, Muxtar Vilayətin və respublikanin digər regionlarının iqtisadiyyatı bir-birini tamamlayır, onların arasında qarşılıqlı iqtisadi əlaqələrin güclənməsi isə obyektiv xarakter daşıyır və bunlar bu vahid təbii-iqtisadi kompleksin sistemli şəkildə planlaşdırılması və idarəedilməsi üçün bütöv bır sıra prinsipial amillərlə bağlıdır. Həqiqətən də Dağlıq Qarabağ Azərbaycana iqtisadi tellərlə sıx bağlı idi və məhz Azərbaycan Respublikasının qayğıları ilə bu region özünün iqtisadi-sosial və mədəni yüksəlişinə nail olmuşdu. Təkcə bir faktı nəzərə çatdırmaq kifayət edər ki, bu qayğının səviyyəsini müəyyən edəsən. Qarabağın Aran hissəsinə nəzərdə tutulan Toxuculuq Kombinatının Stepanakertdə tikilməsi qərara alındı. 50–60-cı illərdə ipəkçiliyin inkişafı üçün 2 dəfə vəsait artırıldı. DQMV-dəki ipək emalı müəssisəsinin işini daha da yaxşılaşdırmaq üçün 50-60-cı illərdə barama istehsalı 70 faiz artdı. 1940-cı ildə 114 ton idisə, 1960-cı ildə bu 186 tona çatdı. Lakin bu da Qarabağ İpək Kombinatının tələbatını ödəmirdi. Azərbaycanın kənarından barama və iplik alınırdı.

1950–1953-cü illərdə tikintisi başa çatmış Qarabağ İpək Emalı fabriki qabaqcıl müəssisəyə çevrildi. Bu müəssisə xam ipək, rənglənmiş parça, ipək sap istehsal edirdi. 1970-ci ildə DQMV-nin ipək emalı müəssisələrində 3 min nəfərdən çox adam işləyirdi. Kombinat işçiləri çox yüksək maaş alırdılar, qısa bir vaxtda Xankəndi şəhərində 400 mənzildən ibarət 14 yaşayış binası tikilib verilmişdi. Təkcə bu kombinatda 400 nəfərlik körpələr evi, xəstəxa-

nası, mədəniyyət evi, kitabxana, istirahət ocaqları, pioner düşərgəsi vardı.

Ermənilər bu müəssisənin inkişafı üçün çalışırdılar, çünki belə hesab olunurdu ki, o DQMV-də erməni köçünün qarşısını alacaq. O biri tərəfdən isə türk-müsəlman əhalinin yaşadığı kəndlərə biganə münasibət göstərirdilər, bunun da səbəbi vardı, ermənilər bütün imkanları işə salmışdılar ki, DQMV-də azərbaycanlı yaşamasın.

Muxtar Vilayətdə yeyinti sənayesi xüsusən şərabçılıq sürətlə inkişaf edirdi. Azərbaycan burada şərabçılığın sənaye əsasında inkişafını təmin etmişdi. Əsgəranda, Qırmızı Bazarda, Xankəndidə, şərab – konyak zavodları işə salınmışdı.

Şərabın ilkin emalı müəssisələri isə Dağlıq Qarabağın hər təsərrüfatında var idi. Qarabağ Şərab Tresti təkcə SSRİ-də deyil, bütün dünyada məşhur idi. Bu trest ümumi sənaye məhsulunun 34%-ni verirdi. Yağ-pendir zavodu, Elektrozavod, Qarabağ Xalçaçılıq fabriki (1929), yerli xammala əsaslanan tikinti materialları müəssisələri, meşə kombinatları, şəhər və kəndlərdə yerləşən saysız-hesabsız istehsalat kombinatları bütün SSRİ-də məşhur idi. Maraqlı



bir məqam: Dağlıq Qarabağda Tikiş fabriki tikilməsi qərara alınarkən erməni zəhmətkeşlər Bakıya MK-ya belə bir müraciət etmişdilər ki, "biz bu müəssisəyə 26 Bakı Komissarlarından olan Məşədi Əzizbəyovun adının verilməsini xahiş edirik". Görəsən, bunu ermənilər nədən istəmişdilər, Qatı şovinist, insan qanına susamış cəllad Ş.Şaumyanın silahdaşı olduğuna görəmi, yoxsa Azərbaycanın onlara qayğısına hörmət, ehtiram əlaməti olaraqmı?

60-cı illərdə Azərbaycanda sənaye məhsulu istehsalı 94 faiz artmışdı, DQMV-də isə bu rəqəm 181% olmuşdur. 60-cı illərdə bu vilayətə qoyulan vəsait 20 dəfə artmışdı. (1 milyondan 20 milyona qədər)

Dağlıq Qarabağın kənd təsərrüfatı da qonşu bölgələrdən daha yaxşı inkişaf etmişdi. 1950-60-cı illərdə DQMV kənd təsərrüfatını inkişaf etdirmək üçün uzunmüddətli kreditlər ayrıldı. Qısa müddətdə 6 dəfə DQMV xalq təsərrüfatına 15 milyon 997 min manat vəsait ayrılmışdı. Tədqiqatçı Nazim Məmmədov yazır ki, 1969-cu ildə Azərbaycanda hər bir kənd təsərrüfatında işləyən kolxozçuların aylıq qazancı orta hesabla 143 manat idi. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, Azərbayca-

ti nəticəsində xalqımız ağır məhrumiyyətlərə məruz qaldı və hissə-hissə min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin düşdülər.

1950-ci ildə DQMV-də 128 min əhali yaşayırdı, onun 79%-i kənddə, 21% şəhərdə idi, bu rəqəm 1970-də artıq belə idi – 62% kənddə, 38% şəhərdə. Xankəndi kiçik bir qəsəbədən modern bir şəhərə çevrildi. Əhalinin həyat tərzi yüksəldi. 1950–1960-cı illərdə DQMV-də yaşayan əhalinin sosial-iqtisadi vəziyyətin atmasını əmanət kassalarında saxlanılan pullarm miqdarının xeyli artması müəyyən edirdi.

DQMV-də əsaslı tikinti işlərinin geniş vüsət alması, Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1965-ci il oktyabrın 4-də qəbul etdiyi – "Azərbaycan hökumətinə əsaslı tikintinin planlaşdırılması, əməyi və əmək haqqının maliyyələşdirilməsi sahəsində əlavə hüquqlar verilməsi haqqında" qərarın həyata keçirilməsi ilə də bağlı olmuşdur. Çünki həmin vaxtdan sonra Bakıda evtikmə kombinatı, Sumqayıt və Mingəçevirdə evtikmə zavodları, Sumqayıtda şüşə zavodu və dəmir-beton hissələri istehsal edən zavodlar tikilib istifadəyə verilmiş və istehsal



olunan tikinti texnikaları vaxtında DQMV-yə çatdırılmışdır.

Dövlətimizin DQMV-də apardığı tikinti - abadlıq işləri vilayət sakinlərinin mənzilə olan tələbatının ödənilməsində böyük əhəmiyyətə malik oldu. 1969-cu ilin məlumatına görə, Dağlıq Qarabağda hər adama orta hesabla 7–8 kvadratmetr mənzil sahəsi düşürdü ki, bu ümumrespublika göstəricilərdən 2,5 dəfə çox demək idi. Bununla belə, DQMV XDS "tikinti, şəhərsalma və arxitektura sahəsində səlahiyyət"lərindən – şəhərsalma, arxitektura, kompleks tikinti işləri, şəhərlərin və digər yaşayış məntəqələrinin, muxtar vilayət ərazisində yeni tikintinin yerləşdirilməsi, habelə sənaye, nəqliyyat, mədəni-məişət və digər obyektlərin genişləndirilməsi, yenidən qurulması işinə rəhbərlik etməklə məqsədli şəkildə DQMV ərazisində ermənilər yaşayan kəndlər abadlaşdırılır, əksinə azərbaycanlılar yaşayan kəndlərin heç birində sosial obyekt tikilmirdi. Nəticədə, azərbaycanlı kəndləri boşalıb dağılır və xarabazara çevrilirdi.

Aparılan tədqiqatlar nəticəsində məlum olur ki, 1959–1967-ci illərdə DQMV-də yaşayış məskənlərinin sayı 242-dən 235-ə enmişdir.

Vilayətdə azalan həmin 7 kənd azərbaycanlıların yaşadığı kəndlər idi. Həmin kəndlər ya tamam dağılmış və ya yaxınlıqda yerləşən ermənilər yaşayan kəndlərə birləşdirilmişdir. Ermənilər yaşayan kənd, qəsəbə və sovetliklər mədəni-məişət obyektləri, işıq, istiliklə təmin olduğu halda, Vilayətdə rəhbərlik edən daşnaklar antitürk, antiAzərbaycan siyasətini davam etdirərək azərbaycanlı kəndlərinə həmişə biganəlik göstərmiş və burada yaşayan azərbaycanlı gənclərin iş, yaxşı yaşayış dalınca gedərək qədim ata-baba yurdlarını tərk etməsinə, nəticədə, azərbaycanlıların sayının azalmasına gətirib çıxarmışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın digər bölgələrindən fərqli olaraq, DQMV-nin şəhər, rayon, qəsəbə və kəndlərində irihəcmli kompleks tikinti işləri həyata keçirilmişdir. Lakin bütün bu müvəffəqiyyətlərlə yanaşı, DQMV-də ictimai və fərdi mənzil tikintisi üçün ayrılan dövlət vəsaiti, Dağlıq Qarabağ rəhbərliyi tərəfindən qəsdən Azərbaycan Respublikasına qarşı süni narazlıqlar yaratmaq məqsədilə səmərəli istifadə edilmir və ya istifadəsiz qalırdı. Məsələn, 1963-cü ildə mənzil tikintisi kəsirlə yerinə yetirilmişdir. 1968–1969-cu illərdə isə 1 milyon 517 min manat dəyərində tikinti-quraşdırma işləri görüləcəyi halda, 177,7 min manatlıq (ümumi vəsaitin 53 faizi dəyərində), kommunal tikinti sahəsində isə planda nəzərdə tutulan 298 min manatlıq əvəzinə 190, 9 min manatlıq tikinti-quraşdırma işləri görülmüşdür. Bundan əlavə, DQMV-nin ən böyük tikinti təşkilatından biri olan 9 saylı Tikinti Tresti 1968–1969-cu illərdə respublikamızın tikinti təşkilatından hər cür köməklik almasına baxmayaraq, mənzil tikinti işlərini kəsrlə yerinə yetirmiş və əvəzində Azərbaycan hökumətini günahlandırmışdır. 9 saylı Trestin səhlənkarlığı, yarıtmaz təşkilatçılığı və vilayət rəhbərliyinin məkrli siyasəti nəticəsində, 1969-cu ildə Ağdərə rayonunda 527 kvadratmetrlik 16 mənzilli yaşayış binası, Hadrut rayonunda 527 kvadratmetrlik 16 mənzilli, Xocavənd rayonunda 315 kvadratmetrlik 12 mənzilli, Xankəndidə 1208 kvadratmetrlik sahəsi olan, 32 ailəlik yaşayış evləri Azərbaycan hökumətinin dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq, istifadəyə verilməmişdir.

60-cı illərdə tikilərək istifadəyə verilmiş mənzillərin çoxu dövrün tələbləri səviyyəsindən aşağı idi. Bunların çoxunda keyfiyyətsiz-

lik, dizayn-arxitektura işinin zövqü oxşamaması, kommunal xidmətin tam səviyyədə olmaması halları var idi. Mənzil tikintisi sahəsində Dağlıq Qarabağ rəhbərliyinin yaratdığı bu və ya buna bənzər süni narazılıqlar Azərbaycan rəhbərliyinin diqqətindən yayınmamış, dəfələrlə müzakirə edilib əməli tədbirlər həyata keçirilməsi üçün istiqamətlər müəyyənləşdirilmişdir. Lakin Vilayət rəhbərliyi "öz məqsədlərinə çatmaq" üçün bu istiqamətdə olan nöqsanları aradan qaldırmaq məqsədilə heç bir əməli tədbirlər görmədi. Bütün bunlara baxmayaraq, 1950–1960-cı illərdə Azərbaycan hökuməti hər il ardıcıl olaraq DQMV-nin şəhər, qəsəbə və kəndlərin abadlaşması, küçə və parkların salınması, yenidən qurulması və kommunal xidməti müəssisələrinin təmiri və yenidən qurulması üçün dövlət büdcəsindən böyük məbləğdə vəsait ayırdı. Təkcə 1959–1965-ci illərdə Dağlıq Qarabağın şəhər və rayon mərkəzlərində hamam, kanalizasiya, yaşayış evlərinin istilik, işıq və başqa kommunal xidmətləri üçün 22,6 milyon manat vəsait ayırmışdır ki, bu da 1955–1958-ci illərə müqayisədə 2,2 dəfə çox idi. 1960-ci ildə dövlətimiz tərəfindən ayrılan vəsait hesabına 460 hektar



sahə, küçə və meydan yaşıllaşdırılmış, küçələrin kənarına 10 mindən çox ağac əkilmiş və 263,8 hektar sahədə meşə zolağı, 7,2 hektar sahədə park və bulvarlar salınmışdır.

DQMV-də şəhər, qəsəbə və kəndlərin abadlaşdırılması, kommunal məişət xidmətinin genişlənməsi də əhalinin həyat şəraitinin yaxşılaşmasına çox kömək edirdi. 1970-ci ildə DQMV-də şəhər ümumi ictimai mənzil fondunun 93 faizi su kəmərləri, 89 faizi kanalizasiya, 93 faizi mərkəzi isitmə və buxardan istifadə sistemi ilə təchiz edilmişdi. Bəhs etdiyimiz dövrdə ümumrespublika üzrə bu göstəricilər: su kəmərləri 81 faiz, kanalizasiya 79 faiz, mərkəzi isitmə və buxardan istifadə sistemi 54 faizə çatmışdır. Faktlardan göründüyü kimi, DQMV-də kommunal-məişət xidməti sahəsində olan göstəricilər ümumrespublika səviyyəsindən yüksəkdə dayanmışdır.

DQMV-də elm böyük uğurla inkişaf edirdi. Hələ XX yüzilliyin 40-cı illərinin ortalarında yaradılmış Azərbaycan SSR Elmlər Akademiyasının Dağlıq Qarabağ filialı qısa bir müddətdə xeyli işlər görmüşdür. 1950-ci ildə DQMV-nin Leninavan qəsəbəsində daha bir elmi mərkəz "Azərbaycan SSR Elmlər Akademiyası

Genetika və Seleksiya İnstitutunun Qarabağ Elmi-Təcrübə Bazası" açılmışdır.

Azərbaycan Elmlər Akademiyasının Dağlıq Qarabağ filialı və Qarabağ Elmi-Təcrübə Bazası öz fəaliyyətlərini inkişaf etdirir, müxtəlif problemlərin öyrənilməsini daha da dərinləşdirir, istehsalatla əlaqələri genişləndirir, elmi kadrların hazırlanması işinə xüsusi diqqət yetirirdi. XX yüzilliyin 50–60-cı illərində DQMV-də elmi kadrların sayı 8 dəfə artmışdı.

XX yüzilliyin 50–60-cı illərində ictimai və humanitar elmlər sahəsində mühüm nailiyyətlər əldə edilmişdi. Azərbaycanın bir çox ərazilərində, o cümlədən, DQMV-də arxeoloji-qazıntı işləri aparılmış və bölgədə qədim orta əsrlər tarixinin bir çox öyrənilməmiş məsələlərini işıqlandıran maraqlı arxeoloji materiallar tapılmışdır. Bu işdə M.M.Hüseynovun, Ə.Q.Cəfərovun bölgədə apardıqları arxeoloji elmi-tədqiqat işləri mühüm əhəmiyyətə malik idi.

1964-cü ildə Azərbaycan SSR DQMV-nin Hadrut rayonu ərazisində Tağlar mağarasının öyrənilməsinə başlanmışdır. Tağlar mağarası bir-biri ilə bağlı salonlardan ibarətdir. Buradakı şərq salonunda ibtidai insanlar yaşamış, müxtəlif təbii amillərdən, təhlükələrdən qorunmuşdur. Salon gili torpaqla əhatə olunduğundan ilin soyuq vaxtlarında burada yaşamaq daha əlverişli idi. Açıq qayalıqdan ibarət qərb salonundan isə ibtidai insanlar müxtəlif məqsədlərlə, həm də qonşu tayfaların hücumlarından müdafiə olunmaq məqsədilə istifadə etmişdilər.

Azərbaycan KP Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilən plenumunda Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nin birinci katibi seçildi. Bu hadisə Azərbaycan tarixində böyük əhəmiyyət kəsb edir. Çünki, 1969-cu ildən Azərbaycan tarixində dönüş mərhələsinin təməli qoyuldu və Respublikamızın iqtisadi, siyasi və mənəvi həyatında dinamik inkişaf baş verdi. O cümlədən, Azərbaycanın ayrılmaz hissəsi olan DQMV həmişə uzaqgörən dövlət başçımızın diqqət mərkəzində olmuşdur. Şuşa şəhərinin inkişafı üçün Azərbaycan KP MK-si bir neçə dəfə qərar qəbul etmişdir. 1970-ci ilin əvvəllərindən başlayaraq Şuşa şəhərinin tarixi abidələrinin bərpa olunmasına, yeni binaların tikilməsinə başlanmışdır. 1980–1981-ci illərdə Molla Pənah Vaqifin qəbri üzərində böyük məqbərə ucaldılmışdır. Azərbaycanın qədim mədəniyyət mərkəzi

olan Şuşa şəhərində Üzeyir Hacıbəyovun, Bülbülün ev muzeyləri açılmış və Xan qızı Natəvanın heykəli qaldırılmışdır. Şəhərdə böyük mehmanxana, çoxmərtəbəli yaşayış binaları, inzibati binalar tikildi. Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində Şuşa ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi.

Dağlıq Qarabağda əhalinin təminatı həmişə Azərbaycan SSR üzrə orta göstəricilərdən yüksəkdə dayanmışdır. 1973-cü ildə Xankəndidə Azərbaycan Pedaqoji İnstitutunun filialı əsasında Pedaqoji İnstitut açıldı. 1979-cu ildə Ağdamdan Xankəndiyə dəmir yolu çəkildi. Heydər Əliyevin ağıllı və uzaqgörən siyasəti nəticəsində partiya və sovet orqanları ictimai təşkilatlar öz işini elə qurmuşdur ki, erməni separatçıları açıq çıxışlardan çəkinirdilər. 1977-ci ildə Dağlıq Qarabağ məsələsi növbəti dəfə qaldırılsa da, qarşısı qətiyyətlə alınmışdır.

İqtisadi inkişaf 1970–1985-ci illər Azərbaycanın, o cümlədən, onun ayrılmaz tərkib hissəsi olan DQMV iqtisadiyyatı, keçdiyi əvvəlki inkişaf illəri ilə müqayisədə, ən əlamətdar və böyük yüksəliş dövrü kimi tarixə daxil olub. 1969-cu ildə Azərbaycan KP MK-nın birinci



katibi seçilən H.Ə.Əliyevin fədakar və böyük vətənpərvər yaradıcı fəaliyyəti, başqa sahələrdə olduğu kimi, sosial-iqtisadi tərəqqidə də əsil dönüş mərhələsi yaratdı. H.Ə.Əliyev həmin dövrdə iqtisadiyyatın mövcud şəraitində mümkün olan ən münasib strateji inkişaf məqsədlərini əzm və cəsarətlə müəyyən etdi. O, müəyyən etdi ki, Azərbaycanda, xüsusilə, onun ayrılmaz hissəsi olan DQMV-də məhsuldar qüvvələrin inkişafında hökm sürən bir sıra yanlış prinsiplərin əksinə olaraq, onun yüksəlişi Dağlıq Qarabağın böyük imkanlarının istifadəsinə və zəruri tələblərinin ödənilməsinə əsaslanmalıdır. İqtisadiyyatın nəzərdə tutulan böyük miqyaslı inkişafının sürətlə tələb olunan səviyyədə genişləndirilməsi məqsədilə, ilk növbədə, yaranmış istehsal potensialından tam istifadə edilməsi tələb olunurdu. Bütün bunlar üçün isə ittifaq hökumətindən əlavə vəsait almaq lazım idi. H.Ə Əliyevin təşəbbüsü ilə SSRİ hökuməti Azərbaycanda sənaye və kənd təsərrüfatının intensiv inkişafı üçün 5 xüsusi qərar qəbul etdi, xeyli vəsait və maddi-texniki resurslar ayırdı. 1971–1985-ci illərdə Azərbaycanda xalq təsərrüfatının inkişafı üçün sərmayə qoyuluşunun həcmi 32 milyard manata çat-

mışdır ki, bu da sovet dövrünün əvvəlki 50 ilində istifadə edilən vəsaitdən 2,1 dəfə çox idi.

Azərbaycanın regionlarının inkişafı Heydər Əliyevin həmişə diqqət mərkəzində olmuşdur. Müasir sənayeyə, çoxsahəli kənd təsərrüfatına, geniş sosial strukturaya malik DQMV-nin inkişafı üçün Azərbaycan hökuməti 1971–1985-ci ildə 483 milyon vəsait ayırdı ki, bu da əvvəlki beş il ərzində olduğundan 2,8 dəfə çox demək idi. Aparılan tədqiqatçılar nəticəsində məlum olur ki, son 20 il ərzində (1965–1985) adambaşına düşən əsaslı vəsaitin həcmi 4 dəfə artmışdır. Bu rəqəm 1961–1965-ci illərdə 59 manat olduğu halda, 1981–1985-ci illərdə 226 manata çatmışdır. 1970–1985-ci illərdə DQMV-də ümumi dəyəri 470 milyon manat olan əsas fondlar, 15 sənaye müəssisəsi və başqa istehsal sahələri istifadəyə verilmişdir.

Araşdırmalara görə, 1970–1985-ci illərdə, ümumilikdə respublikamız üzrə regionların xalq təsərrüfatına ayrılan vəsaitin həcmi sayca 3-cü yerdə dayanırdı. Halbuki, erməni daşnakları əsassız, ərazi iddialarına haqq qazandırmaq, ictimai rəyi öz tərəfinə çəkmək üçün ənənəvi əzabkeş obrazı yaratdırdılar ki, guya respublika rəhbərliyi DQMV-ə diqqət yetirmir və



bölgədəki iqtisadi inkişaf göstəriciləri başqa regionlardan aşağı səviyyədədir. Bütün bunlar isə əsassız, boş cəfəngiyyatdan başqa bir şey deyildir. Çünki, bəhs etdiyimiz illərdə təkcə adambaşına düşən kapital qoyuluşunun həcminə görə DQMV respublikamızın başqa regionlarını arxada qoymuşdur.

Təkcə bir faktı qeyd etmək yerinə düşərdi ki, DQMV-də yeni sənaye müəssisələrinin tikintisi üçün 1923-cü ildə əsaslı vəsaiti qoyuluşu 1 milyon manat idisə, 1970–1985-ci illərdə əsaslı vəsait qoyuluşu 30–35 milyon manata çatmışdır.

1970–1980-ci illərdə DQMV-də sənaye dinamik inkişaf etmişdir. 1980-ci illərin statistik məlumatlarına görə, Dağlıq Qarabağda 52 müasir sənaye müəssisəsi vardır ki, həmin müəssisələr yüzlərlə növ məmulat buraxırdı. Bəhs etdiyimiz illərdə DQMV sənaye müəssisələrində ipək məmulatları, elektrik cihazları, lüminessent lampaları, kondensatorlar, musiqi alətləri, mebel, dekorativ lövhə və suvenir məmulatları, tikinti materialları, üzlük bəzək plitələri, ayaqqabı, toxuculuq malları, ət və süd məhsulları, qənnadı və un məmulatları, konyak, spirt, şərab və başqa məmulatlar istehsal

olunurdu. 1980-ci illərin ortalarında Dağlıq Qarabağda 35 növ sənaye məhsullarına Dövlət Keyfiyyət nişanı verilmişdir ki, bundan 26-sı xalq istehlakı malları idi. 1983-cü ildə DQMV-də sənaye istehsalının həcmi 1923-cü ildəkinə nisbətən 912 dəfə artmışdır.

### 5. Münaqişələr tarixinə qısa ekskurs...

Erməni – türk-müsəlman münaqişələrinin tarixi XIX əsrə gedib çıxır. "Erməni məsələsi" ortaya atılmamışdan əvvəl Osmanlının "sadiq təəbəsi" olan ermənilər heç bir problem yaratmırdılar. Əksinə onlara verilən milli və dini üstün haqlardan istifadə edərək türklərin özlərindən belə yaxşı yaşayırdılar. Şübhəsiz ki, erməniləri şirnikləndirən və onları öz ağaları üzərinə qaldıran çox ciddi səbəblər olmuşdur. Onlardan birincisi o idi ki, Qərb müsəlman dünyası içərisində xristian toplum kimi ermənilərdən bir vasitə kimi istifadə etmək istəyirdi və bu təklif ermənilər tərəfindən məmnuniyyətlə qəbul edildi. Çünki Qərb ermənilərə xidmətləri müqabilində parçalayacağı Osmanlı torpaqlarından onlara pay ayırmağa söz verirdi və buna görə min illər boyu mehribancasına



dinc yanaşı yaşadığı qonşuya xəyanət də etmək olardı.

Ermənilər XIX əsrin ikinci yarısında artıq bu xəyanət yolunu tutmuşdular və Osmanlının zəif düşməsini nəinki gözləyir, hətta ona bütün gücləri ilə yardım edirdilər. Ermənilərin toplum halında yaşadıqları ərazilərdə qeyri-sabitliyin hökm sürməsində maraqlı olan Qərb dövlətləri və Rusiya bölgədə fəaliyyətlərini aktivləşdirmək üçün yeni təşkilatların yaranmasına ehtiyacın olduğunu dərk edirdilər. İngiltərənin Van konsulu Çlayton öz ölkəsinə göndərdiyi bir raportda (12 oktyabr 1890) Rusiya Ermənistanından (İrəvan quberniyası nəzərdə tutulur) Türkiyə ermənilərinə silahlar göndərilməsi üçün cəmiyyətlər qurulduğu və bu silahların paylanması üçün casusların olduğunu yazmışdı. Çlayton elə həmin ilin noyabrında göndərdiyi digər bir raportda ermənilərin artıq üsyana hazır olduqlarını, bunu amerikalı bir missionerdən təfsilatı ilə öyrəndiyini qeyd etmişdi.

Vanda konsul vəzifəsində çalışmış rus general Mayevskinin xatirələrində isə bu fikir yer almışdı ki, 1895-ci ildə Van inqilabçıları Avropanın diqqətinin "erməni məsələsi" üzərinə yenidən çəkmək istəyirdilər. Zəngin erməni-

lərə pul yardımı təhdidləri ilə məktublar göndərirdilər. "Hnçak" qəzeti özünün 1890-cı ilin martında çıxan 9-cu sayında ermənilərin müstəqillik mübarizəsinə kömək etməyənlərin öldürüləcəyini yazmışdı. "Hnçak" Partiyasının Rusiyanın və Avropanın xalqçı qrupları ilə bağlılığını qeyd edən erməni tədqiqatçısı Meri Koçar qeyd edir ki, erməni milli azadlıq hərəkatma terrorçuluqla nəyəsə nail olmaq ideyası bu təşkilatların təsirindən yaranmışdır və Hnçak öz fəaliyyətində terroru istisna etmirdi. O, qeyd edirdi: "Bir tərəfdən xalqçıların terrorçu fəaliyyəti, bu vasitələrin Ermənistana yayılması və onun Türk despotizminə qarşı istifadə edilməsi, digər tərəfdən bu ideologiyanın marksizmin əsaslarına təsir etməsi, "Hnçak" Partiyasınm ilkin proqramında nəzərdə tutulanlar idi". 1887-ci ildən çıxan "Hnçak" qəzetində də bu *ideyalar yayılmağa, təbliğ edilməyə* başlamışdı. Bütün bunların özü də sübut edirdi ki, "Hnçak" terrorçu bir təşkilat kimi ortaya çıxmışdı. Partiyanın 1888-ci ildə dərc olunan proqramında da terrorizm mübarizə vasitələrindən biri kimi göstərilirdi. Proqramda nəzərdə tutulurdu ki, "Türkiyədə silahlı üsyanla mövcud quruluşu dəyişdirmək və "Türkiyə Ermənistanı"nı inqilabçı – qeyri-sabit regiona çevirmək" əsas məqsəd idi. Müstəqillik əldə edilmədiyi təqdirdə Türkiyə Ermənistanın başqa bir ölkənin "tərkibinə keçməsinə nail olmaq". Əlbəttə, həmin ölkə Rusiya idi və buradan ermənilərə pul və silah yardımı gəlirdi.



Meri Koçar özünün "Erməni-türk ictimai-siyasi münasibətləri və erməni məsələsi" adlı kitabında "Hnçak" partiyasımn üç mübarizə üsulundan danışır. Onlardan birincisi təbliğat, ikincisi təşviqat və üçüncüsü terror olduğunu qeyd edən müəllif ona milli-azadlıq mübarizəsi donu geyindirmək istəyir, müəllif danmır ki, insanlığa qarşı cinayət işlətməyi öz proqrammda rəsmiləşdirmişdi. Partiyanın praktik fəaliyyətində əsas faktor olan terrora görün necə haqq qazandırılır: "Terrorun məqsədi xalqı əzilməkdən qorumaq, onun ruhunu, inqilabi ovqatını *aşağı salmaq, qorxu yaratmaq!* Bütün bunlara nail olmaq üçün türk və erməni yüksək administrativ postlarda çalışan iki millətin nümayəndələri, bir-birinə barışmaz düşmən etmək lazımdır, satqın və agentləri məhv etmək gərəkdir". Bu, "Hnçak" partiyasının proqramından gətirilən sitatlar qarşıya belə bir məqsəd qoyan partiyanın necə fəaliyyət göstərəcəyi isə

məlum idi. "Hnçak" partiyası öz proqramında bu sözləri yazmaqla kifayətlənmirdi. Bu məqsədlərin həyata keçirilməsi üçün partiya nəzərdə tuturdu:

- sırf terrorçuluq fəaliyyəti ilə məşğul olan təşkilatın formalaşmasını;
- kəndlilər arasında geniş fəaliyyət imkanı olan inqilabi təşkilatın formalaşmasını;
- fəhlələr arasında inqilabi təşkilatın yaradılmasını;
- həm kəndli, həm də fəhlə təşkilatlarının hərbi-inqilabi təşkilata çevrilməsini.

"Daşnaksutyun" partiyası barədə də dövrün mətbuatında eyni şərhlər verilmişdir. Yenə də bir erməni müəllifindən sitat: "Komitənin (Daşnak komitəsi nəzərdə tutulur) proqramı üsyan yolu ilə "Türkiyə Ermənistanı"na siyasi və iqtisadi azadlıq qazandırmaq idi. Komitənin 1892-ci ildə keçirilən Baş Məclisində qərarlaşdırılan proqramın 8-ci maddəsi "hökumət üzvlərini öldürmək, sərvətlərini isə dağıtmaq və talamaq idi".

1877-78-ci illər rus-türk müharibəsindən sonra siyasi vəziyyət ermənilərin xeyrinə dəyişməməsi də erməni təşkilatlarını fəallaşdırmışdı. Bu müharibədən sonra Türkiyə özünün tarixi ərazisi olan Qars vilayətini bütünlüklə itirdi, Qars 1918-ci ilə qədər Rusiya əsarətində qaldı. Bundan əlavə, Berlin müqaviləsinə (1878) görə, Osmanlı dövləti öhdəsinə götürürdü ki, "ermənilərin yaşadıqları vilayətlərdə islahat aparacaq, bu sahədə tədbirlərin həyata keçirilməsinə nəzarət edəcək, böyük dövlətlərə müəyyən olunmuş vaxtlarda məlumat verəcəkdi". O dövrdə ermənilərə aid erməni və rusdilli mətbuat orqanları bu hadisələri maraqla qarşılayırdılar. 13 iyun - 13 iyul 1878-ci il Berlin konfransından ermənilər müstəqillik qərarı gözləyirdilər. Bu baş verməyincə ona nail oldular ki, Osmanlı dövləti öz ərazisində yaşayan xristian toplumla bağlı hesabat vermək məcburiyyətini qəbul etməli oldu. Ermənilər isə müstəqilliyi nə vaxtsa alacaqlarına ümid edərək ölkə içərisində təxribatlar, üsyanlar, xaos yaratmaq işlərini genişləndirdilər.

Sonralar Erməni İnqilabi Federasiyası – "Daşnaksutyun" *partiyası San-Stefano müqaviləsinin* 16-cı paraqrafını və Berlin müqaviləsinin 61-ci maddəsini əsas götürərək "müstəqillik uğrunda mübarizədə haqlı" olduqlarını sübut etmək ideologiyasını genişləndirdi. Ermənicə çıxan daşnaklara aid "Droşak" ("Bay-

məlum idi. "Hnçak" partiyası öz proqramında bu sözləri yazmaqla kifayətlənmirdi. Bu məqsədlərin həyata keçirilməsi üçün partiya nəzərdə tuturdu:

- sırf terrorçuluq fəaliyyəti ilə məşğul olan təşkilatın formalaşmasını;
- kəndlilər arasında geniş fəaliyyət imkanı olan inqilabi təşkilatın formalaşmasını;
- fəhlələr arasında inqilabi təşkilatın yaradılmasını;
- həm kəndli, həm də fəhlə təşkilatlarının hərbi-inqilabi təşkilata çevrilməsini.

"Daşnaksutyun" partiyası barədə də dövrün mətbuatında eyni şərhlər verilmişdir. Yenə də bir erməni müəllifindən sitat: "Komitənin (Daşnak komitəsi nəzərdə tutulur) proqramı üsyan yolu ilə "Türkiyə Ermənistanı"na siyasi və iqtisadi azadlıq qazandırmaq idi. Komitənin 1892-ci ildə keçirilən Baş Məclisində qərarlaşdırılan proqramm 8-ci maddəsi "hökumət üzvlərini öldürmək, sərvətlərini isə dağıtmaq və talamaq idi".

1877-78-ci illər rus-türk müharibəsindən sonra siyasi vəziyyət ermənilərin xeyrinə dəyişməməsi də erməni təşkilatlarını fəallaşdırmışdı. Bu müharibədən sonra Türkiyə özünün



tarixi ərazisi olan Qars vilayətini bütünlüklə itirdi, Qars 1918-ci ilə qədər Rusiya əsarətində qaldı. Bundan əlavə, Berlin müqaviləsinə (1878) görə, Osmanlı dövləti öhdəsinə götürürdü ki, "ermənilərin yaşadıqları vilayətlərdə islahat aparacaq, bu sahədə tədbirlərin həyata keçirilməsinə nəzarət edəcək, böyük dövlətlərə müəyyən olunmuş vaxtlarda məlumat verəcəkdi". O dövrdə ermənilərə aid erməni və rusdilli mətbuat orqanları bu hadisələri maraqla qarşılayırdılar. *13 iyun - 13 iyul 1878-ci il Berlin* konfransından ermənilər müstəqillik qərarı gözləyirdilər. Bu baş verməyincə ona nail oldular ki, Osmanlı dövləti öz ərazisində yaşayan xristian toplumla bağlı hesabat vermək məcburiyyətini qəbul etməli oldu. Ermənilər isə müstəqilliyi nə vaxtsa alacaqlarına ümid edərək ölkə içərisində təxribatlar, üsyanlar, xaos yaratmaq işlərini genişləndirdilər.

Sonralar Erməni İnqilabi Federasiyası – "Daşnaksutyun" partiyası San-Stefano müqaviləsinin 16-cı paraqrafını və Berlin müqaviləsinin 61-ci maddəsini əsas götürərək "müstəqillik uğrunda mübarizədə haqlı" olduqlarını sübut etmək ideologiyasını genişləndirdi. Ermənicə çıxan daşnaklara aid "Droşak" ("Bay-

raq") adlı qəzetdə "Daşnaksutyun"un və digər erməni təşkilatlarının terrorçuluq fəaliyyətinə haqq qazandırılırdı. Buradakı 16-cı paraqraf ermənilərin milli hüquqları ilə bağlı idi, bütün dünyaya o zamanlar bəlli idi ki, Osmanlı dövləti azsaylı xalqların hüquqlarını qorumaqda bir çox Avropa ölkələri üçün örnəkdir və bunu onlar etiraf da edirdilər. Amma Qərb onları elə şirnikləndirmişdi ki, ermənilər həmişə yaxşılıq görmüş "türk dövlətinə ağ olmaq məcburiyyətində qalmışdılar". O dövrkü nəşrlərdən olan "Ports" yazırdı ki, "bu məsələdə heç bir problem yox idi, problem ermənilərin əvvəlcə muxtariyyət, sonra isə müstəqillik əldə etmək üçün qurduqları planla bağlı idi" ki, ona da bir hüquq dövləti olan Osmanlı imkan verə bilməzdi.

Münaqişələr artıq 1890-cı ildən başlayaraq Vanda, Bitlisdə, Sasunda, Ərzurumda, İrəvanda və Osmanlınm ermənilər yaşayan digər ərazilərində başlamışdı. 1905-ci ildən etibarən bu münaqişələr Cənubi Qafqazın ayrı-ayrı yerlərinə sıçramışdı. Ermənilər Şərqi Anadolu, Kilikiya və Cənubi Qafqazda mümkün erməni dövlətini qurmaq üçün bütün qüvvələrini işə salmışdılar. 1914-cü ildə başlanan Birinci Dünya müharibəsində Antanta ilə savaşan Osmanlı İmperiyasına arxadan zərbə vurmaqdan çəkinməyən ermənilər Şərqi Anadoluda öz dövlətlərini elan etməyə yaxın idilər. Çünki Şərqi Anadolunun böyük bir hissəsini zəbt etmiş Rusiya və digər Antanta dövlətləri onlara söz vermişdilər.



Amma Osmanlı daxili işlər naziri Tələt paşa bir qərarla bütün planları alt-üst etdi. 1915-ci ilin mayında Şərqi Anadoluda yaşayan ermənilər müharibə qanunlarına uyğun olaraq ölkənin bir ərazisindən digərinə Suriyaya (o zaman Suriya Osmanlı sərhədləri içərisində idi) köçürüldülər. Kilikiyada da fransızların məğlubiyyəti ermənilərin dövlət yaratmaq planlarını puça çıxardı. Erməni siyasi təşkilatları bu planı Cənubi Qafqaza köçürdülər. Bu ərazilərin isə ermənilərə heç bir dəxli yox idi və onların Cənubi Qafqazın İrəvan, Gəncə, Qarabağ və Naxçıvan ərazilərində məskunlaşma tarixi heç 100 il də deyildi. İstər Bakıda, istərsə də Bakının kənarında ermənilərlə qarşıdurmaların tək səbəbi o idi ki, ermənilər özgə torpaqlarını zəbt edib oranı özününküləşdirmək, heç bir haqq və hüququ olmadan bu ərazilərdə dövlət qurmaq istəyirdi. Bu bir tarixi ironiyadır ki, türk-müsəlmanların min illər boyu yaşadıqları

ərazilərdə "Erməni dövləti" quruldu və həmin vaxtdan (1918) bu günə qədər bu dövlət xalqımıza qarşı qanlı terror aparır.

## 6. Erməni terrorunun qurbanlarmdan biri – Dağlıq Qarabağ

Şərqi Anadoluda baş verən olayların təkrarı düz 100 il sonra Qarabağda başladı. Terrorla, ölümlə, qanla... Dağlıq Qarabağ da bu terrorun qurbanlarından biridir. 1988-ci ildə erməni iddialarının açıq şəkildə bəyan olunmasına işarə əslində yuxarıdan gəlirdi. Sovetlər Birliyinin rəhbərliyi daha da gərginləşdirmək yolu tutdu. Ermənilər ilk dövrdə küçələrə bu şüarlarla çıxırdılar. "Lenin, Partiya, Qorbaçov"-əslində bu şüarın gizli mənası vardı. Məhz Leninin xeyir-duası ilə Bakıda və Azərbaycanın müxtəlif yerlərində kütləvi daşnak-bolşevik qırğmları törədilmişdi. İKP Dağlıq Qarabağ Azərbaycanın ola-ola onun kimə məxsusluğunu müzakirəyə çıxarmış və 1923-cü ildə xaincəsinə Dağlıq Qarabağa muxtariyyət statusu verilmişdi. Buna heç bir əsas yox idi.

Şüardakı "Qorbaçov" sözünə gəlincə artıq heç kəsə sirr deyildi ki, SSRİ rəhbərliyinə ermənilərin köməyi ilə gətirilmiş bu şəxs ermənipərəst mövqedə idi və hətta ermənilərdən Dağlıq Qarabağa görə rüşvət alması da söylənilirdi. Hadisələrin sonrakı gedişi M.Qorbaçovun ermənipərəst olduğunu sübut etdi. Millətlərarası münaqişəni aradan qaldırmaq, ortaya çıxan problemləri həll etmək əvəzinə Sovet rəhbərliyi ermənilərin Dağlıq Qarabağda sosial-iqtisadi geriliyin olması avantürasma dəstək verməyə başladı. Bu tezisin əsassızlığım o dövrdə Azərbaycan iqtisadçı alimləri sübut etdilər. Amma onların təhlil və nəticələri Mərkəz tərəfindən diqqətə alınmadı. Mərkəzdə lövbər salmış ermənilər birtərəfli qaydada öz təbliğatlarını aparmaqdaydılar.

SSRİ rəhbərinin iqtisadi məsələlər üzrə müşaviri Aqanbekyanın məlum bədnam tezisi Dağlıq Qarabağm Ermənistan iqtisadiyyatı ilə bağlılığı barədə avantürası dəstək görürdü. Amma bu bədnam hərəkətə qədər heç zaman, heç bir erməni alimi bu barədə danışmamış, heç zaman iqtisadi gerilikdən, Muxtar Vilayətin ağır sosial durumundan bəhs etməmişdi. Əksinə onlar DQMV-in Azərbaycan SSR tərkibində qazandığı nailiyyətlərdən geniş surətdə söz açmışdılar. Həqiqətən də Dağlıq Qarabağ iqtisadi tərəqqi yolu keçmişdi. Dağlıq Qarabağ

işğal edildikdən sonra da heç bir erməni alimi bu barədə fundamental iş ortaya qoymayıb. Heç kəs buna cürət etməyib. Əksinə işğal prosesi başlanarkən, yəni 1988–1989-cu illərdə erməni millətindən olan şəxslər öz çıxışlarında və yazdıqları məqalələrində bu gerçəyi etiraf etmişlər ki, Dağlıq Qarabağın sosial-iqtisadi vəziyyəti ətraf Azərbaycan rayonlarından 2,8–3 dəfə yaxşı olmuşdur.

Amma hələ 80-ci illərin ortalarında ermənilər əvvəlcədən ictimai rəy formalaşdırmaq üçün SSRİ rəhbərliyinə müraciətlər məktublar təşkil edirdilər. Akademik Ziyad Səmədzadə bunun şahidlərindən biridir. O "Dağlıq Qarabağ: Naməlum həqiqətlər" adlı kitabında xatırlayır ki, "açıq-aşkar təhrif edilmiş məlumatlardan və uydurmalardan ibarət belə ərizələrdən biri Sov.İKP MK-ya 1986-cı ilin yazında (daha doğrusu DQMV-də hadisələr başlayandan iki il əvvəl) daxil olmuşdu. Təkcə ərizədə göstərilən faktları deyil, bütünlüklə DQMV-nin sosial-iqtisadi və mədəni inkişafına respublikanın ayrı-ayrı nazirlik və baş idarələrinin rəhbərləri tərəfindən diqqətsizlik göstərilməsi başdan-ayağa qərəzli və uydurma xarakter daşıyır. Bunu hətta belə bir fakt da sübut edirdi ki, ərizədə göstərilən 216 imzadan yalnız 21 imza DQMV ərazisində yaşayan adamlara məxsus idi. Söhbət zamanı isə onların hamısı bu məktubdan xəbərsiz olduqlarını qətiyyətlə söylədilər". Akademik qeyd edirdi ki, 1986-cı ildə sənaye məhsulları istehsalının ümumi həcmi Muxtar Vilayətdə 60 faiz təşkil edirdi. Sənaye məhsulları istehsalının inkişaf sürətinə görə DQMV orta respublika göstəricisindən (178, 8 faizə qarşı 183 faiz) qabaqda idi. Bax bu idi Dağlıq Qarabağa Azərbaycanın "basqıları". Adambaşına düşən sənaye məhsullarının həcminə görə sənaye məhsullarınm həcminə görə DQMV respublikanm digər regionları arasında birinci yerdə idi.

Kənd təsərrüfatı sahəsində də uğurlar müqayisə edilərsə, DQMV digər Azərbaycan rayonlarından üstün idi. Ölkə əhalisinin 2 faizinin yaşadığı vilayət ümumi kənd təsərrüfatı məhsullarının 5%-ni verirdi. 1986-cı ildə vilayət əhalisinin adambaşına düşən pul gəlirləri 1113,5 manatdan çox olmuşdur ki, bu da bütövlükdə Azərbaycan üzrə olduğundan 97,8 manat, Naxçıvan MSSR-dəkindən isə 170,4 manat çoxdur. Bu idimi Azərbaycanm Dağlıq Qarabağa Azərbaycanın təzyiqləri? 1961–87-ci

illərdə vilayətdə xəstəxana çarpayılarının sayı 1,7 dəfədən çox artmışdı. Burada 6 sanatoriya və istirahət müəssisəsi, 2 min yerlik turist bazası fəaliyyət göstərirdi.

Burada şəkil qalareyaları, muzeylər (9 muzey) fəaliyyət göstərirdi. Əhalinin hər on min nəfərinə 13 kitabxana düşürdü. Azərbaycan üzrə isə bu rəqəm 6 idi. Bu idi Azərbaycanın Qarabağ ermənilərini cəhalətdə saxlamaq təşəbbüsləri? DQMV-in demək olar ki, bütün kəndlərində klublar var idi (İndi orada itlər ulaşır–Q.Ç.) Erməni yazıçılarının həm Bakıda, həm də Xankəndidə 1 milyon nüsxəyə çatan əsərləri çap olunurdu. Bakıda gündəlik "Kommunist" qəzeti, "Graqan Adrbecan" ("Ədəbi Azərbaycan"), "Aqitator" ("Təşviqatçı") adlı jurnallar, Xankəndidə erməni və rus dillərində "Sovetakan Karabax" qəzeti çıxır, Şuşa, Əsgəran, Martuni, Hadrut, Mardakertdə rayon qəzetləri fəaliyyət göstərirdi. Məktəblərdə erməncə tədris üçün hər cür şərait yaradılmışdı. Bir sözlə, ermənilər Azərbaycanın tərkibində çox hürr və firəvan yaşayırdılar. Onlara qarşı heç zaman, heç bir səviyyədə milli basqılar olmamışdı. Dağlıq Qarabağı Azərbaycandan qoparmaq üçün uydurulanları onların özləri də puç və mənasız iş adlandırırdılar.

Bu məsələ – DQMV-nin sosial-iqtisadi geriliyi ilə bağlı məsələ Qarabağda hadisələr qızışarkən dərhal ortaya atıldı, o zaman Azərbaycan Nazirlər Soveti yanında Xalq Təsərrüfatını İdarəetmə İnstitutunda bir görüş keçirilmişdi. Burada erməni alim və vəzifə adamları da iştirak etmişdilər. Bu da onların dedikləri:

**Tiqran Xaçaturov,** *SSRİ Elmlər Akademiyasının akademiki*: **"Biz hamımız yenidənqurma tərəfdarıyıq, istəyirik ki, nəzərdə tutulanların hamısı tezliklə həyata keçirilsin...**

**Son beşilliklər ərzində mənzil, məktəbəqədər uşaq tərbiyə müəssisələrinin, səhiyyə obyektlərinin təhvili sahəsində muxtar vilayət üzrə məhsul vahidinə görə əsaslı vəsait qoyuluşunun göstəriciləri orta hesabla respublikaya və onun başqa regionlarına nisbətən xeyli yüksək olmuşdur".**

**C. Avetisov** – *Azərbaycan SSR yüngül sənaye nazirinin müavini*: **"Bu gün DQMV ipək istehsalına görə respublikada ikinci mərkəzdir. Yüngül sənaye məhsulunun üçdə iki hissəsi və respublikanın ipəkçilik sənayesi**

**məhsulunun təxminən 25 faizi DQMV-nin payına düşür".**

**N. Poqosov,** *Azərbaycan ET Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun baş elmi əməkdaşı, iqtisad elmləri doktoru:* **"Bu gün vilayət, respublikamızm mühüm kənd təsərrüfatı regionlardan biridir. Ümumən burada səmərəlilik göstəriciləri pis deyildir. Əkinçilik və heyvandarlığın idarə edilməsi mədəniyyəti artmışdır, ASK-nın maddi-texniki bazası ardıcıl möhkəmləndirilir".**

**A. Ayriyan,** *Azərbaycan SSR meşə və ağac emalı sənayesi naziri:* **"Bizim sahəmiz barədə bir neçə kəlmə demək istərdim. O texniki səviyyəsi yüksək olan yeni yüksək məhsuldar Vətən avadanlığı və xarici avadanlıqla təchiz edilmiş mebel fabriki ilə təmsil olunmuşdur. Son 17 ildə fabrikin gücü 17 dəfə artmışdır".**

**Bəli, bunlar erməni millətindən olan şəxslərin dedikləridir,** DQMV-nin geriliyi barədə cəfəng iddialar ortaya atılarkən onların doğru olmadığım sübut etdilər. Amma Moskvada buna inanmadılar və Dağlıq Qarabağı Azərbaycandan qoparmağın başqa üsullarını fikirləşməyə başladılar. Vəziyyətin real qiymətləndirilməsinə maraqlı olmayan Sovet rəhbərliyi erməniləri ifşa edib onları yerində oturtmaq əvəzinə 1988-ci ilin 24 martında bir qərar qəbul etdi: "1988–1995-ci illərdə Azərbaycan SSR-in DQMV-nin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında". Bu qərar əslində ermənilərin separatçılıq hərəkətinə bəraət qazandırmaq idi. Bu qərarla onu demək istədilər ki, həqiqətən Azərbaycan bu bölgəyə biganə münasibət göstərib, vilayət sosial-iqtisadi cəhətdən geri qalıb və s. Bundan sonra ermənilərin əlinə, belə bir bəhanə də verildi ki, madam ki, belədir, onda biz Azərbaycanın tərkibində qalmaq istəmirik və Vilayət XDS məlum qərarı (Hələ də həmin qərar ləğv edilməyib) SSRİ Ali Soveti Rəyasət Heyətinin 1989-cu il yanvarın 12-də "Azərbaycan SSR-nin DQMV-də xüsusi idarəçilik formasının tətbiqi haqqında" qəbul etdiyə qərar isə birbaşa ermənilərə xidmət edirdi. Bu "Xüsusi İdarəçilik" xalqın tələbi ilə elə həmin il noyabrın 28-də ləğv edildi. Bunun əvəzinə yeni bir ermənipərəst qurum Təşkilat Komitəsi yaradıldı.

Ermənistan bundan bəhanə kimi istifadə edərək 1989-cu ilin dekabrın 1-də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı

antikonstitusion qərar qəbul etdi. Bu, Azərbaycana qarşı SSRİ rəhbərliyinin növbəti sui-qəsdi, təxribatı idi və buna xalq kəskin etiraz etdi. 1990-cu ilin 20 yanvar qırğınlarının həmin vaxta təsadüf etməsi bir gerçəkdir.

Azərbaycan öz müstəqilliyini 1991-ci ildə elan edərkən BMT və bütün dünya dövlətləri Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi tanıdılar. Lakin erməni separatçıları 1991-ci ilin sentyabrında qeyri-qanuni olaraq burada separatçı bir qurum – "Dağlıq Qarabağ Respublikası" elan etmişdilər. Nə Azərbaycan, nə də dünyanın hər hansı bir dövləti (o cümlədən Ermənistan) bu qurumu tanımadı. 1991-ci ilin sonlarında Dağlıq Qarabağ uğrunda Azərbaycan və Ermənistan arasında faktiki müharibə gedirdi. Dağlıq Qarabağda xidmət edən Sovet ordusu və onun əsgəri ləvazimatı, silah-sursatı, texnikası ermənilərə təhvil verildi və bir çox döyüşlərdə ruslar ermənilərlə birləşərək Dağlıq Qarabağın azərbaycanlı kəndlərinə divan tutub onları köçə zorladılar. 1992-ci ilin yanvarın 15-də Kərkicahan, fevralın 10-da Malıbəyli, Quşçular, Qaradağlı kəndləri işğal olundu. Sırada Xocalı vardı. Ermənilər dünya tarixində görünməmiş bir soyqırıma imza atdılar. Fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş verənlər bəşər tarixinin ən qanlı ləkəsidir. Rusların 366-cı motoatıcı alayı bu soyqırımı törətməkdə ermənilərin yanında oldu. Xocalıda 613 nəfər öldürüldü, 487 nəfər yaralandı, 1275 nəfər əsir götürüldü, uşaq və qocalara belə rəhm edilmədi. Xocalıda elə ailə vardı ki, o tamamilə məhv oldu, nəsil kəsildi.

Ermənilər işğalı davam etdirdilər. Sonra Şuşa işğal olundu, onun ardınca Laçın əldən getdi, 1993-cü ilin aprelində Kəlbəcər işğal edildi. Sonra iyul-oktyabr aylarında Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan... Bu müharibədə Azərbaycan 20 mindən artıq dəyərli insanını itirdi, 100 mindən çox insan yaralanmış, 4861 nəfər vətəndaşımız ermənilər tərəfindən əsir və girov götürülmüşdü. Onların çoxunun taleyi bu günə qədər məlum deyil. Azərbaycanlılar öz doğma yurdlarını tərk etmək məcburiyyətində qalmışlar. 1 milyon nəfərə yaxın azərbaycanlı qaçqın həyatı yaşamaqdadır. Erməni işğalı isə davam edir.

## 7. Vətəndən ayrı salınmış Dağlıq Qarabağın indiki durumu

Dağlıq Qarabağ işğal edildikdən sonra burada vəziyyət olduqca ağırlaşdı. Azərbaycanla bütün kommunikasiyalar kəsildikdən və əlaqələr qırıldıqdan sonra erməni milliyyətçiləri ümid edirdilər ki, Dağlıq Qarabağın Ermənistanla inteqrasiyasına nail olacaqlar. Bu isə mümkün deyildi. Əvvəla, Ermənistan özü iqtisadi potensialı olmayan süni bir dövlət kimi ortaya çıxıb, onun özünü doğruldacağı çox böyük şübhə altındadır. Bir dövlət olaraq perspektivsizliyi ondan bəllidir ki, indi o tamamilə Rusiyadan asılı vəziyyətə düşüb. Rusiyadan aldığı borc və kreditləri qaytarmadığına görə indi Ermənistanın ən iri müəssisələri ya tam şəkildə, ya da böyük hissə olaraq Rusiyanın mülkiyyətinə çevrilir. Məsələn, Ermənistanın Dəmir Yolları indi Rusiyanın nəzarətindədir (75%), ermənilər dəmir yolunda istədikləri planı həyata keçirə bilmirlər. Eləcə də Atom Elektrik Stansiyası, "Nairit" zavodu, Ararat Sement Zavodu və s. Belə müəssisələr onlarcadır.

İkincisi, Dağlıq Qarabağ Ermənistanın mərkəzi rayonlarına çox uzaq olduğundan bura ilə



belə deyək, alış-veriş xeyir eləmir. Qarabağdan aparılan və satışa çıxarılan məhsulun "xərci borcunu ödəmir". Ermənistandan Laçın koridoru ilə ianə hesabına Xankəndiyə yeni yol salınsa da, bu yol Ermənistanla Dağlıq Qarabağı iqtisadi tellərlə bir-birinə bağlamır. 2002-ci ildə ATƏT-in xətti ilə bir qrup Azərbaycan jurnalistinin Ermənistan və Dağlıq Qarabağa səfəri zamanı yeni çəkilmiş (əslində bərpa-təmir işləri aparılmış) bu yolla gedərkən bizi muşayiət edən Anjey Kasprşikdən soruşdum: "Sizcə ermənilər bu yolla Dağlıq Qarabağı Ermənistana birləşdirə bilərlərmi?" Yanında ermənilərinin nümayəndəsi olduğundan diplomatik formada çiynini çəkdi və bu cavab verməkdən imtina etmək anlamına gəlirdi. Onun yerinə Dağlıq Qarabağın Ermənistandakı təmsilçisi Karen Mirzoyan cavab verdi: "Biz artıq birləşdirmişik". Oktyabr ayı olduğundan üzüm sezonu idi və avtobusun pəncərəsindən bizə üzüm almaq üçün yalvaran erməni arvadını göstərib dedim: "Bu qadının üzümü İrəvana gedib çıxanacan çaxır olacaq". Digər bir həmkarımız isə Karenin yerinə cavab verdi: "Nə olar, üzüm yeməzlər, çaxır içərlər"...

Çox qəribə idi ki, Xankəndidə bir görüşdə bizə yerli zavod istehsalı – tut arağı təklif olunarkən Dağlıq Qarabağ "sənayesinin" bundan irəli getməyəcəyi qənaəti doğurmuşdu. O zaman bizə dedilər ki, vaxtilə 5 min nəfərin çalışdığı Qarabağ Toxuculuq Kombinatı, ayaqqabı və mebel fabrikləri işləmir. Çünki iri müəssisələrin hamısı Azərbaycan iqtisadiyyatı ilə sıx bağlı idi. İpək Kombinatı Şəkisiz işləyə bilməzdi, Mərmər zavodu məhsullarını satmaq üçün Azərbaycan boyda bazarı itirmişdi, Qarabağ kənd təsərrüfatı məhsulları Xankəndi – Bakı dəmir yolunun işləməməsi səbəbindən xarab olurdu.

Deməк Qarabağda yaşayan əhalinin iş imkanları çox məhdud idi. Bu səbəbdən də hamının gözü yolda idi. Dağlıq Qarabağdan çıxıb getmək, qaçmaq üçün xaricdəki erməni diasporu yaxşıca da yol çəkmişdi. Amma bu yolla Qarabağdan qaçmaq mümkün deyil. Çünki buradakı ermənilər bir insan olaraq sərbəst hərəkət etmək səlahiyyətinə malik deyillər. Qarabağdan qeydiyyatdan çıxmaq Aya uçmaq kimi bir şeydir. Vaxtilə "AzərTac"ın və ermənicə "Kommunist"in Dağlıq Qarabağ üzrə müxbiri işləmiş Aleksandr Qriqoryana ünvanladığım



"Belə yaşamaq sizə çoxmu xoşdu?" sualına: "Neyləyək bizimki belə gətirdi", – deyə cavab verdi. "Nə gözləyirsiniz" sualina isə: "Məsələnin həllini. Azərbaycan bizim dövlətimizi tanımalıdır", – deyə yekəxana cavab verdi. Onda Saşaya dedim ki, "dövlət" sözü çox yekə çıxır, bu necə dövlətdir ki, insanların işləyəcəyi bir dənə də olsun müəssisə yoxdur, Azərbaycanın tərkibində olduğu dövrdə olan cah-cəlaldan, qaynar həyatdan əsər-əlamət qalmayıb.

Erməni həmkarlarımızdan biri söhbətimizə müdaxilə edərək bildirdi ki , biz də hamı kimi işləyir, maaş alırıq. Doğrudur, bu illər ərzində Dağlıq Qarabağ əhalisinin korluq çəkməməsi üçün Erməni diasporu bütün gücünü, vəsaitini qoyub. Bunu da ona görə ediblər ki, əhali burdan qaçmasın. Daha dünyanın harasında insanlara müftə maaş verirlər? Bax bu cəhətdən də Dağlıq Qarabağ unikal regiona çevrilib. Budur, il başlanır, separatçı qurumun rəhbəri qollarını çirməyib səfərlərə çıxır. "Qarabağ marafonu" keçirmək, pul yığmaq üçün. Budur, braziliyalı erməni 5 dollar göndərib, fransadan bir əsnaf 100 dollar, biri 50, biri 15... Sonra ermənilər bütün diaspor, lobbi və başqa vasitələrini işə salıb ABŞ və digər ölkələrdən humanitar yar-

dım istəyirlər. ABŞ isə kefi istəyəndə verir, kefi istəməyəndə yox. Budur, ABŞ 2009-da Ermənistana pul ayırdı, Dağlıq Qarabağa yox! Müraciət və yalvarışların isə heç bir əhəmiyyəti olmayacaq. Deyəsən, bu il Dağlıq Qarabağdakı ermənilərin maaşı bir az aşağı düşəcək. Axı ianələr azalıb. Dünyada baş verən krizisin də təsiri DQ-da özünü göstərəcək. Erməni zənginlər Qarabağa verdikləri ianələrin miqdarını kəskin şəkildə azaldıblar.

Vəziyyətin belə bir şəkil alacağını hələ münaqişə başlamazdan əvvəl verilən proqnozlar da açıq göstərirdi. Robert Arakelov Bakı ermənisidir. Rusca "Karabaxskaya tetrad" ("Qarabağ dəftəri") adlı kitab yazıb nəşr etmişdir. O bu kitabında Azərbaycan xalqına edilən haqsızlığı özünəxas ürəkağrısı ilə, ironiya ilə çatdırır. Arakelov Dağlıq və Aran Qarabağı haqlı olaraq "siam əkizləri" adlandırır, onların bir-birindən ayrılmasının heç Allaha da xoş getməyəcəyini, bunun heç mümkün belə olmayacağını yazır. O belə bir misal çəkir ki, 1989-cu ildə DQMV Ermənistana birləşdirilməsi ideyası "gerçəkləşəndə" Xankəndidəki bazarın qabağına gətirib bir lövlə vurdular: "Ermənistan Aqrar Sənaye Komitəsi". Bazar boş, ərzaq gətirən yox. Bu idi Ermənistanın qarabağlılara "töhfəsi". Ardınca isə aclıq, səfalət, gerilik! Arakelova görə, "Qarabağı Azərbaycandan qoparmaq ideyasının memarları nəzərə almalıydılar ki, regionda bugünkü Ermənistan 30-cu illərin Avropasında Almaniya deyil: nə potensialı var, nə də imkanları. Onlar Ermənistanın anklav vəziyyətini, geopolitik durumunu da nəzərə almadılar. Onlar onu da nəzərə almadılar ki, Ermənistanın təcavüzkar hərəkətləri qonşuları necə də narazı salacaq. Öz şəxsi iqtisadi və digər problemlərini qonşuların suveren hüquqlarını pozmaqla əldə etməyin "perestroyka"nın cəzasızlıq sərhədləri içərisində qalacağına ümid edənlər möhkəm yanıldılar".

Arakelov məsələnin həllinin ən yaxşı yolunu da təklif edir. BMT Təhlükəsizlik Şurasındakı "beşlik" ("ABŞ, Rusiya, Çin, Fransa, Böyük Britaniya) Helsinki anlaşmasının tələblərinə uyğun olaraq tədbirlər görməlidir. Necə ki, İraq Küveyti işğal edərkən çıxarılan qərar və onun həyata keçirilməsi təxirəsalınmaz oldu, burada da Ermənistanın silahın gücü ilə qanunlara tabe olmağa məcbur edilməlidir. "Ermənistan nəyi göstərir?" Bəlkə onu ki: "Qarabağda yenə qanlar axsın?" Haqlı sualdır. Ermənis-

tan bu qanlardan doymadımı? Görünür "bu xəmir hələ çox su aparacaq". Budur, əlləri qanlara batmış bir cinayətkar – komandos ləqəbli Ter-Tadevosyan "Urpat" ("Cümə") Mətbuat Klubunda mətbuat konfransı keçirir və Azərbaycanı hədələyərək deyir ki, onlar bir əməliyyat planını hələ həyata keçirməyiblər, Azərbaycan elə etməsin ki, bunu həyata keçirib yeni torpaqlarını tutaq. O deyir ki, Ermənistan ordusunun durumu Azərbaycan və Gürcüstan ordusundan daha yaxşıdır və hər ikisinə eyni vaxtda cavab vermək iqtidarındadır. "Erməni xəstəliyi"nə yoluxmuş bu "qəhrəman" və digərləri bilməlidirlər ki, heç bir vaxt ermənilərə məxsus olmayan bu torpaqların yiyəsi var, Qarabağın dağı da aranı da bir xalqa məxsusdur. Bura ermənilər üçün müvəqqəti yaşayış yeridir.

Dağlıq Qarabağdan belə məlumatlar gəlir ki, Ermənilər buradan qaçırlar, onlar deyirlər ki, "Burada dözülməz həyat şəraiti ilə üzləşmişik, əlimizə imkan düşən kimi başqa ölkəyə gedəcəyik". Dağlıq Qarabağdakı hazırkı durum burada yaşayan erməniləri sürəkli şəkildə köçkünlərə döndərir. Fridrix Ebert fondunun maliyyə dəstəyi ilə Xankəndi Press Klubunun keçirdiyi yeni rəy sorğusu nəticəsində bəlli



olub ki, qarabağlı hayların 63,2%-i buradakı vəziyyəti dözülməz sayaraq, üzləşdikləri sosial-iqtisadi şəraiti çox ağır hesab edir.

1250 nəfərin rəyinin öyrənildiyi sorğu iştirakçılarının 71,4%-i ağır yaşam şərtlərindən dolayı "əllərinə imkan düşən kimi" Dağlıq Qarabağı tərk edəcəyini söyləyib. Bu zaman respondentlərin 58%-i qazanc dalınca yola düşəcəyini deyib. Sorğuya qatılanların 47,2%-i miqrasiyanın başlıca səbəbinin Dağlıq Qarabağdakı sosial ədalətsizlik, 16,3%-i "hərbi əməliyyatların yenidən başlanma təhlükəsi", 8,7%-i isə "siyasi səbəblər" olduğunu açıqlayıb. Respondentlərin 68,3 faizinin fikrincə, Dağlıq Qarabağın düşdüyü bunca açınacaqlı durumun əsas günahkarı Arkadi Qukasyan və onun ətrafındakılar, həmçinin hakimiyyətdəki bütün məmurlardır. Qarabağlı ermənilərinin fikrincə, Xankəndidə düzgün siyasət yürüdülmür. Sorğu iştirakçılarının 42,1 faizi sözügedən naqisliyin səbəbini hərbi əməliyyatlar, 27,2 faizi keçid dövrü, 24,5 faizi isə "Dağlıq Qarabağın rəsmən tanınmaması"nda görür. Respondentlərin 51,3 faizi Dağlıq Qarabağda insan haqlarının əsla qorunmadığını deyib.

Ermənistan İnsan Haqlarının Müdafiəsi Mərkəzinin eksperti Hrayr Ağacanyanın dediyinə görə, sorğunun nəticələri təəccüblü deyil: "Dağlıq Qarabağdakı hakimiyyət dəstəsinin yürütdüyü siyasət bütünlüklə buradan idarə olunur və oradakı yerli əhalinin maraqlarını demək olar ki, nəzərə almır. Qarabağlı ermənilər daim əndişədə, təlaşda və qorxudadırlar. Rəsmi təbliğat onları az qala hər an döyüşmək istəyən adamlar kimi qələmə versə də, oradakı ermənilər yalnız yaşamlarını özlərini və gələcəklərini düşünən insanlardır. Bu adamları "savaş adamları" kimi təqdim etmək uğursuz təbliğatdır. Qarabağlı ermənilər təbii ki, Azərbaycanın tərkibində yaşamaq istəmirlər. Lakin onlar Ermənistanda da vəziyyətin ağır olduğunu görərək başqa dövlətlərə üz tuturlar.

## 8.Ermənilər indi daha çox dərk edirlər ki, onlar öz evlərində yaşamırlar

Bunları biz söyləmirik, Qarabağa ezamiyyətə gələn Ravil Buxarayevin müşahidələridir. Jurnalist Dağlıq Qarabağda bunları müşahidə etmişdir, Şuşa isə onun ürəyini ağrıtmışdı: "Hər yeri dağıdılmış Şuşa xarabazara bənzəyirdi"



"Mən həmişə Dağlıq Qarabağ problemi ətrafında baş verən münaqişələri ürək ağrısı ilə izləmişəm. Biz dünyada baş verən bütün münaqişələrə qarşıyıq. İslam bütövlükdə münaqişəyə qarşı çıxır, Allah birliyi sevir. Harda ki, birlik yoxdur, orada parçalanma başlayır". Bu sözləri Tatarıstan Respublikasının görkəmli ictimai xadimi, şair, dramaturq, "Quran-i Kərim"i rus dilinə tərcümə edən müəlliflərdən biri Ravil Buxarayev deyib.

Eyni zamanda Londonda "Müslim TV Ahmadiyya İnternational" adlı TV-də çalışan Buxarayev bildirib ki, 1999-cu ildə CNN TV-nin xətti ilə problemi araşdırmaq üçün Şuşa şəhərinə səfər edib: "Elə oldu ki, gecənin birini Azərbaycanın baş tacı olan Şuşada azərbaycanlı evində yaşayan ermənilərin qonağı oldum. Şuşanın o gecəsi mənim yaddaşımda qara və qaranlıq bir gecə kimi qaldı".

Buxarayevin sözlərinə görə, hər yeri dağıdılmış şəhər xarabazara bənzəyirdi: "Və bu xarabazarda azərbaycanlı evində yaşayan erməni bütün həqiqəti ilə dərk edirdi ki, bura onun evi deyil. Onların evində bir köhnə televizor vardı, yalnız Azərbaycan telekanallarını izləmək mümkün idi. Bakıdan qaçıb gələn bu

erməni ailəsi televiziyadakı verilişləri öz mədəniyyəti, öz televiziyası kimi qəbul edirdi. Azərbaycan dilini çox gözəl bilən bu ermənilərin danışıqlarından hiss edirdim ki, bütün qəlbləri ilə Azərbaycan üçün narahatdırlar. Azərbaycan dilində verilişlərə baxanda gözləri dolurdu. O ermənilər Bakını bir gün görmək üçün hər şeydən keçərlər".

Bu nümunəni ona görə nəzərinizə çatdırdıq ki, ermənilərin böyük əksəriyyəti sonu bilinməyən bir oyunnun içində olduqlarını bilirlər, amma onu dilə gətirməyə qorxurlar. Onlar bilirlər ki, Dağlıq Qarabağ yüz illər bu vəziyyətdə qalsa da, onların olmayacaq. Amma Azərbaycanda hər kəsə aydındır ki, biz son dərəcə güclü, ağıllı, tədbirli, həm öz ölkəsində, həm də xaricdə ermənilik ideolojisi ilə silahlanmış kəmfürsət bir düşmənlə üz-üzəyik. Bu düşmən hər yerdə, hər sahədə bizə zərbələr vurmaqda, bizi zəiflətmək üçün tədbirlər görməkdədir. Gördünüzmü, ötən günlərdə "Jaranqutyun" (İrs) fraksiyasının rəhbəri, keçmiş XİN rəhbəri Raffi Hovhannisyanın irəli sürdüyü layihə belə keçmədi. İndi o ABŞ prezidentinə məktub yazaraq bildirir ki, Dağlıq Qarabağ guya heç zaman Azərbaycanın tərkibində olmamışdır. Guya DQMV SSRİ-yə tabe idi və SSRİ dağılanda o da müstəqilliyini elan etmişdir. Sanki uşaq aldadır.

Bu ermənilər bəzən elə ağ yalan danışırlar ki, təəcüb edirsən ki, görəsən onların ağlı yerindədirmi? Ermənilər bilirlər ki, indiki anda Dağlıq Qarabağdakı separatçı qurumu hətta öz ölkələrində belə tanımaq onlara necə baha başa gələ bilər. "Dağlıq Qarabağ Respublikası"nın tanınmaması, bir azərbaycanlı politioloqun iddia elədiyi kimi bu ərazilərdən Ermənistanın imtina eləməsi anlamına gəlmir. Əksinə, ermənilər qəbul etdikləri sənəddə Dağlıq Qarabağla bağlı qarantor funksiyasını da öz üzərlərinə götürürlər, bu, əslində beynəlxalq qanunlara zidd bir hərəkətdir. Onlar yaxşı bilirlər ki, bu hərəkətə görə heç bir ölkə və beynəlxalq təşkilat onları qınamayacaq. Amma Dağlıq Qarabağın "müstəqilliyini" tanıdığına görə Ermənistana təpkilər ola bilər. Ermənilər belə hesab edirlər ki, bu məsələ hələ yetişmədiyinə görə onu dilə-dişə salmaq lazım deyil. Parlamentin sədri Abramyan bu prinsiplərdən çıxış edərək onun qəbul edilməsini qeyri-mümkün (amma hələlik) saymışdır. Parlamentin DQ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamə isə Ermə-

nistan dövlətinin təcavüzkar siyasətinin davam etdiyini göstərən bir sübutdur və biz diplomatik mübarizəmizdə bu "sənəddən" yararlana bilərik. Amma biz ermənilərin verdiyi açıqlardan, yəni səhvlərdən necə istifadə edirik? Bu artıq ayrı bir məsələnin mövzusudur.

## 9. Erməni iddiaları sonsuzdur

Bəli, bir əsrdən çoxdur ki, biz – Şərqi Anadolu və Cənubi Qafqaz regionunda yaşayan insanlar erməni adlı bir mənfur düşmənlə üzüzəyik. Bu düşmən dünyanın müxtəlif mərkəzlərindən sistemli şəkildə Türk Dünyasına qarşı təxribatlar aparmaqda, xalqı terrorla, ölümlə, qanla təhdid etməkdədir. Dünya erməniliyi mümkün bütün üsullardan istifadə edərək öz məqsədinə nail olmaq istəyir. Avropanın, Amerikanın söz sahibi olan ölkə və təşkilatları yüz ildən çoxdur ki, bu başabəla toplumu haqq-nahaqq müdafiə edir.

"Erməni məsələsi" ortaya atılandan günümüzə qədər bölgədə siyasi məqsədlərini həyata keçirmək üçün erməni faktoru bu dövlətlər üçün ən yaxşı vasitə olmuşdur. Və şübhəsiz Türkiyə və Azərbaycana bağlı bu dövlətlərin strateji maraqlarını reallaşdırmaq üçün tarixi



Azərbaycan torpaqlarının içərisində yaradılmış Ermənistan dövlətindən istifadə edilməsi hədəflənmişdir. İndiki halda Ermənistan Rusiyanın "forpostudur", sabah isə digər bir super gücün dayaq məntəqəsi olması mümkün olan ehtimaldır. Diqqət edin, ermənilər Azərbaycanın torpaqlarının 20 faizini işğal edib, ölkəmizdə yerindən-yurdundan didərgin salınmış bir milyon nəfər qaçqın-köçkün var. Ermənilər Azərbaycanın Dağlıq Qarabağında separatçı rejim qurublar, bizə – 300 milyonluq Türk Dünyasına meydan oxuyurlar. Dünya birliyi onlara basqı, təzyiq etmək əvəzinə ona hər səviyyədə dəstək verir. Amerika Birləşmiş Ştatlarının özü Ermənistana və hətta DQ-dakı separatçı rejimə yardım göstərir, özü də bunu hər il edir, amma Azərbaycan uzun illər bu humanitar yardımlardan kənarda idi. Azadlığı Dəstək Aktına 907-ci düzəliş etməklə Azərbaycana humanitar yardımlar belə qadağan edilmişdi. Bu gün də Azərbaycanın bir milyon qaçqın ordusu olmasına rəğmən ermənilərə yardımlar ildən-ilə artırılır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlanandan bu günə qədər işğalçı dövlətə heç zaman təzyiq olmaması bir gerçək-

dir. Ermənistan silahlı birləşmələrinin Azərbaycanın işğal olunan torpaqlarından çıxarılması barədə BMT-nin çıxardığı 4 qətnamə yerinə yetirilmir, həmin qətnamələrdə işğalçı erməni ordusunun Azərbaycan ərazilərindən çıxarılması nəzərdə tutulurdu. BMT-nin Baş Assambleyası yeni bir sənəd də ortaya qoymuşdur. İşğal edilmiş Azərbaycan əraziləri ilə bağlı yeni bir sənəd ortadadır. Amma ermənilərin Qərbin hansısa təzyiqi ilə yola gəlib Azərbaycanın işğal olunan torpaqlarını azad edəcəyi bir xülyadır, bu gerçəyi uca səslə söyləməliyik, özümüz-özümüzü aldatmamalıyıq. Bu ölkənin kütləvi informasiya vasitələrində Türkiyə və Azərbaycanla bağlı məsələlərə münasibətin nə yerdə olduğunu aydmlasdırmaq mənim üçün çətin deyil, həm də ona görə çətin deyil ki, ermənilərin bizlərə münasibəti yüz illər boyunca eynidir, dəyişməsinə də ehtimallar azdır. Bugünkü Ermənistan cəmiyyəti bizlərə nifrət ideologiyası üzərində köklənib. Dağlıq Qarabağla bağlı mövqeləri, məsələyə ayrı-ayrı siyasi-ictimai qrupların, Ermənistanın politoloqlarının, alimlərinin, ziyalılarının münasibətini təhlil edərək ilginc bir nəticəyə gəlmişik. Ermənilər heç vaxt Dağlıq Qarabağın Azərbaycanın tərkibində olmasına razı olmayacaqlar. Azərbaycanda da aparılan sorğular bu gerçəyi ortaya qoyur ki, Dağlıq Qarabağın bir qarış torpağı belə ermənilərə verilməyəcək. Bəs onda nə etməli?

Bu durum yeni Qarabağ müharibəsinin labüdlüyünü ortaya qoyur. Dağlıq Qarabağla bağlı Ermənistandakı rejimin inadkarlığı da başqa varianta yer qoymur: Dağlıq Qarabağ ya Ermənistana birləşdirilməlidir, ya da müstəqil olmalıdır. Dağlıq Qarabağın Azərbaycanın tərkibində ən yüksək statusla qalması fikri qəbul edilmir. Madrid prinsiplərində yer alması ehtimal edilən referendumun keçirilməsi (nə vaxt keçiriləcəyindən asılı olmayaraq) Dağlıq Qarabağı müstəqilləşdirəcək. Deməli, bu referendum söhbəti bizim dövlətin milli maraqlarına ziddir. Ermənistanın ən yüksək təbəqəsində dayananlar bu məsələni öz xeyirlərinə həll edilmiş sayırlar. Ermənistanın keçmiş baş naziri Andranik Markaryanın bir fikrini nəzərə çatdırmaq yerinə düşər: “Qarabağ hərəkatı (yəni Qarabağın işğalı) xalqımızın əzmini, iradəsini, qüdrətini və silahlı qüvvələrimizin nələrə qadir olduğunu bütün dünya qarşısında nümayiş etdirib... İndi növbə “erməni soyqırımı”

faktını qəbul etdirməkdir. Bu faktı inkar edənləri cinayətkar kimi məsuliyyətə cəlb etmək barəsində qanun layihəsi hazırlamışıq və tezliklə onu parlamentimizin təsdiqinə təqdim edəcəyik". Xatırlatmaq gərəkdir ki, bu layihə Ermənistandan öncə Fransa parlamenti tərəfindən qəbul edilmişdi.

İndi dünya erməniliyi bütün gücünü uydurma "erməni soyqırımı"nı qəbul etdirmək işinə qoymuş durumdadır. Heç də təsadüfi deyildir ki, artıq dünyanın 20 ölkəsinin parlamenti bu erməni saxtakarlığına inanmışdır. Ötən ilin sonunda ABŞ Konqresinin Nümayəndələr Palatasına "erməni soyqırımı" barədə qanun layihəsinin çıxarılması ilə bağlı məsələlər də göstərdi ki, Ermənistan Rusiyanın ağuşunda olsa belə, bölgədə onun forpostu hesab olunsa da, ABŞ bu ölkəni əldə etmək, özününküləşdirmək üçün nə vaxtsa onun arzularını yerinə yetirəcəkdir. Ermənistanda keçirilən seçkilərdə ABŞ öz məqsədlərini açıq surətdə ortaya qoydu. Bu isə həm də o deməkdir ki, ABŞ Ermənistanı əldə etsə gələcəkdə Türkiyənin özünü uydurma "erməni soyqırımı"nı qəbul etməyə zorlayacaqdır. Türkiyənin Avropa Birliyinə üzv olmaq istəyini də erməni faktoru ilə bağlayacaqlar və indidən müəyyən şərtlər irəli sürüləcəyi şəksizdir. Bu şərtlər hansılardır, hər halda bu, təkcə Ermənistanla sərhədlərin açılması olmayacaq, Avropa da, Amerikanın özü də bununla kifayətlənməyəcəklər.

Ermənilərin, erməni diasporunun, lobbisinin isə nə istədiyi bəllidir. Ermənilər Şərqi Anadolunun 6 vilayətini indiki Ermənistana birləşdirmək kimi uzunmüddətli strateji plan üzərində işləyirlər. Bu fikri də biz növbəti "erməni xəstəliyi" hesab edə bilərik, amma Ermənistan mətbuatında, ictimai fikrində onun nə qədər aktual olduğunun fərqinə varmalıyıq, diqqətə alıb ciddiliyini dərk etməliyik, bu işin demək olar ki, hər zaman həm Ermənistanda, həm də xaricdə erməni təşkilatlarının bir nömrəli işi olduğunu da yaddan çıxarmamalıyıq. Əgər bu gün Türkiyədən alacaqları təzminatın qədəri barədə mətbuatda diskussiya açılırsa, almacaq pulun xərclənəcəyi sahələr barədə söhbət edilirsə, buna biz gülüb keçməməliyik.

Ermənilərin torpaq tələbləri təkcə Şərqi Anadolunun 6 vilayəti ilə bitmir. Mən sizin nəzərinizə Ermənistandakı bir təşkilatın bəyanatından örnək gətirmək istəyirəm: "Biz tutduğumuz ərazilərlə kifayətlənməməliyik. Marda-

kert (Ağdərə) rayonunun işğal altında qalan torpaqlarını, Şaumyan (Goranboy) rayonunu, tarixi Utik vilayətinin digər ərazilərini, Naxçıvanı almalıyıq... "Bu tələbləri irəli sürən təşkilatın adı da belədir: "Ermənilərin tarixi torpaqları uğrunda vuruşan veteranlar birliyi". Naxçıvan torpaqlarının Ermənistana birləşdirilməsi indi dünya erməniliyin çox ciddi məşğul olduğu bir işdir. "Daşnaksutyun" partiyasının liderlərindən biri, Ermənistan MM-nin sədr müavini, ötən prezident seçkilərində iştirak etmiş Vahan Hovhannisyanın təklifinə fikir verin: "16 mart 1921-ci ildə bağlanmış Qars, və sonra bağlanmış bütün müqavilələr ləğv edilməli və Türkiyənin 300 min kvadratkilometrlik ərazisinin Ermənistana birləşdirilməsi uğrunda mübarizə edilməlidir".

O deyir ki, bu müqavilələrin ləğvi ilə Naxçıvanı əldə etmək, onu da Ermənistana birləşdirmək imkanları yaranacaq. Həmin müqaviləni ləğv etdirmək üçün Ermənistanda həm QHT-lər səviyyəsində, həm də parlamentdə komissiyalar da yaradılıb. Oraya ölkədə və xaricdə tanınmış ermənilər, akademiklər daxil edilib. Akademiklər L.Xurşudyan, H. Simonyan, aktyor-rejissor Sos Sarkisyan da bu komissiyanın tərkibindədir. Naxçıvanla bağlı cəmiyyətlər, təşkilatlar fəaliyyət göstərir. Moskvada tikilən kilsələrdən birinə Nor Naxçıvan ("Yeni Naxçıvan") adı verilib. Kitablar buraxılır, qəzet nəşr olunur, internet saytlarında ideloji mübarizə aparılır, Naxçıvanın erməni ərazisi olması barədə rəy yaradılır. 1999-cu ildən başlayaraq İrəvanda "Naxçıvan" adlı qəzet çıxarılır. Onun redaktoru isə vaxtilə Bakıda erməni̇cə çıxan "Kommunist" qəzetinin müxbiri işləmiş Mels Mkrtçyandır. Burada Naxçıvan ermənilərinin icması fəaliyyət göstərir və bu təşkilat dövlət tərəfindən maliyyələşir.

## 10. Xocalı soyqırımının tanıdılmasına qarşı erməni erməni antitəbliğatı

Erməni ideoloqlar ən yaxşı müdafiənin hücum olduğunu yaxşı bildiklərindən daim bizi üstələməkdədirlər. Əlimizdə Xocalı faciəsi boyda dəlil-sübut, soyqırımı faktı ola-ola bu illər ərzində heç bir iş görə bilməmişik. Hər il Xocalı faciəsinin ildönümü yaxınlaşanda fəallaşırıq, amma onların da heç bir nəticəsi olmur. Erməni vəhşiliyinin əyani sübutları – qətliamın görüntüləri ortada ola-ola heç bir cinayət məsuliyyəti daşıyan yoxdur. Bu qətliamı

törətdiyini qəbul edib üzr istəmək əvəzinə Xocalı faciəsinin özünü bizim ayağımıza yazmaq üçün Avropa və Amerikada ermənilər öz fəaliyyətlərini genişləndirirlər.

Xocalı faciəsinin videogörüntülərini hər yerə yayıb onların ermənilər olduğu və azərbaycanlılar tərəfindən törədildiyi təbliğatı aparırlar. Təsəvvür edin ki, hər hansı ölkədə ermənilər bu görüntüləri yayıblar, sonra biz gəlirik Xocalı faciəsini anlatmağa – bizə inanarlarmı? Və yaxud biz nə qədər işləməliyik ki, dünyanın rəyini öz xeyrimizə dəyişdirə bilək.

Xocalı faciəsinin Azərbaycanın özü tərəfindən törədildiyi barədə təbliğat aparılır. Çoxsaylı saytlarda həmin günlərdə, 1992-ci ilin əvvəllərində Azərbaycanda gedən proseslər qəsdən saxtalaşdırılır və müxtəlif müəlliflərin ayrı-ayrı dövrlərdə yazdıqları məqalələrdə gedən yanlış fikirlərdən ustalıqla istifadə olunur. Məsələn, çex jurnalisti Yana Mazalovanın dönəmin prezidenti Ayaz Mütəllibovdan aldığı müsahibəsinin bəzi hissələrindən istifadə olunur. Xocalı faciəsindən sonra istefa verməyə məcbur olmuş Mütəllibov isti başla ("Nezavisimaya qazeta", 02.04.1992) və düşünmədən deyir ki, Xocalı faciəsini onu hakimiyyətdən



uzaqlaşdırmaq üçün Xalq Cəbhəsi törətmişdir. Ermənilər bu fikirin ucundan tutub sübut etməyə çalışırlar ki, Xocalı faciəsini törətdiklərini azərbaycanlıların özləri təsdiq edirlər. Və yaxud Eynulla Fətullayevin "Gündəlik Azərbaycan" qəzetində "Xocalı gündəliyi" yazısında buraxdığı "səhvlər"dən də ustalıqla istifadə edirlər. "Heyvanları çıxarmağa nail oldular, insanları yox" fikrini başlığa çıxaran bir erməni saytında özümüzün əli ilə özümüzü vururlar. E.Fətullayev məqaləsində qeyd edir ki, guya ermənilər faciədən iki gün əvvəl mülki əhalinin Xocalıdan çıxması üçün koridor verilməsi barədə əhalini xəbərdar ediblər, bu koridorla hətta Kər-Kər çayı tərəfdən bir çox xocalılar təhlükəsiz şəkildə çıxıblar, amma nədənsə Xalq Cəbhəsinin silahlıları xalqı bu yoldan getməyə qoymayıblar, onları Naxçıvanikdən Ağdam tərəfə çıxmağa zorlayıblar. Nəticədə həmin müdhiş faciə baş verib. Guya Dağlıq Qarabağ separatçılarının o vaxtkı lideri Mkrtçyan ona zəng etmiş və Mütəllibovdan "nə üçün Xocalıdakı insanların taleyi sizi maraqlandırmır" deyibmiş... Eynulla bu fikirləri deyib, ya deməyib – onun o qədər də fərqi yoxdur – əsas odur ki, indi bu subyektiv mülahizələr bütün erməni

qəzet və saytlarının bəzəyidir. Deməк, biz ermənilərin saxta təbliğatına fürsət vermişik.

Xocalı faciəsində öldürülənlərin cəsədlərinin sonradan təhqir edilməsini də ermənilər azərbaycanlıların özlərinin törətdikləri barədə təbliğat aparırlar. İrəvanda 2002-ci ildə çapdan çıxmış "Xocalı işi. Xüsusi dosye" adlı kitab (müəllifləri: Levon Melik-Şahnazaryan, Hayk Demoyan) rus, ingilis və digər dillərə tərcümə olunaraq yayılır və bu kitabda Xocalıda qırğınların azərbaycanlılar tərəfindən törədildiyi və bu meyitlərin də azərbaycanlıların təhqir etdiyi iddia olunur. Guya ki, bu videolentlərin müəllifi olan məşhur teleoperator Ç.Mustafayev ona görə öldürülüb ki, o faciənin qurbanlarının təhqir edilməsini də çəkibmiş.

Xocalı soyqırımından kitab yazmış Anatoli Leven "Tayms" qəzetində 1992-ci ilin martında yazırdı: "...Dağlıq Qarabağın qarlı təpələrinə yaxınlaşanda biz hər tərəfdə uzanıqh meyitlər gördük... bunlar qaçarkən güllələnmiş qaçqınlar idi. ...Azərbaycanlı operator təpələrin döşündə öldürülmüş bir neçə yüz cəsədi lentə köçürdü." Daha bir əcnəbi jurnalistin də müşahidələrini də nəzərinizə çatdırıram: "Zaman-zaman Ağdama öz adamlarının diri girovlara dəyişdirdikləri cəsədləri gətirirlər Ancaq gecə gördüklərimiz adamı dəhşətə gətirir; meyitlərin gözləri çıxarılmış qulaqları kəsilmiş, kəllələrin dərisi soyulmuş, başları kəsilmişdir... Kəndirlə bir-birinə bağlanmış bir neçə meyiti zirehli transportyorun arxasına qoşub xeyli sürülmüşdülər. Təhqirlərin həddi-hüdudu yoxdur". Bu rus jurnalisti Vadim Belıxın Rusiyanın əsas mətbuat orqanlarından olan "İzvestiya" qəzetində Xocalı faciəsindən bir neçə gün sonra yazdıqlarıdır. Bu faktların özü də göstərir ki, ermənilər ən vəhşi üsullarla mülki əhaliyə divan tutmuşdular. Yalnız ona görə ki, ermənilərdən milliyyət fərqi vardı.

Ermənilərin Xocalı ilə bağlı məsələlərə çox ciddi yanaşmalarınm, müdafiə xarakterli fəaliyyətlərə rəvac vermələrinin səbəbləri var. Ən başlıcası odur ki, Xocalı bütün xarakteri ilə genosiddir, onu təkzib etmək, danmaq, mümkün deyildir. Çünki Xocalı tarixdə ilk dəfə videogörüntüyə alınmış soyqırımı faktıdır. Bu faktlar o qədər təkzibedilməzdir ki, onların dünyanın əsas dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən soyqırımı faktı kimi nə vaxtsa qəbul ediləcəyindən qorxurlar. Hər il Xocalı faciəsi ərəfəsində ermənicə çıxan mətbuat orqanların-

da xaricdə fəaliyyət göstərən səfirlik, diaspor təşkilatlarını xüsusi tapşırıqla ayağa qaldırmaq meyilli yazılar verilir, müraciətlər olunur, onlar ehtiyatlandırılır. Bütün ilboyu isə bu məsələ ilə bağlı ciddi fəaliyyət göstərilir.

Amma biz boynumuza almalıyıq ki, Xocalı faciəsindən ermənilərə qarşı təbliğatda yetərincə faydalana bilmirik. Hələ də Xocalı faciəsini soyqırımı kimi qəbul elətdirmək təşəbbüsləri bir nəticə verməmişdir. Bununla əlaqədar təbliğat işi də sistemsiz aparılır. Türkiyə və Azərbaycanın birgə fəaliyyəti yox dərəcəsindədir. Ermənilər bizim fəaliyyətsizliyimizi lağa qoyurlar. 1999-cu ildə erməni jurnalist Marina Qriqoryan yazdığı bir məqaləsində qeyd edirdi ki, hər ilin fevralında Bakıdan xəbər gəlir ki, Azərbaycan 1992-ci ilin fevralında Xocalıda kütləvi qırğın törədildiyinə görə Beynəlxalq Haaqa Tribunalına müraciəst edəcək. Haaqadan heç bir səs-soraq olmur. Bu ildə rəsmi Bakı uğursuz cəhdlərini edəcək, dəyişməyən o məqsədlə ki, dünya ictimaiyyətinə erməniləri cəllad və işğalçı kimi qələmə versin".

Bu bir həqiqətdir ki, biz hələ də ermənilər söyləyən formada belə bir addımı atmamışıq, bir çox hallarda sözlə qəhrəmanlıq göstərmişik, işə gələndə isə fəaliyyətimiz özfəaliyyət səviyyəsindən o yana keçməmişdir. Ermənişünaslıq məsələlərində də prinsiplərimiz dəyişməzdir. Halbuki biz Srebrenitsada bosniyalıları vəhşicəsinə qətl edən serblərin mühakiməsi kimi bir məhkəmə qurdura bilərik, bunun üçün kifayət qədər dəlil-sübutlarımız vardır.

Onu da xatırlatmaq gərəkdir ki, təxminən Xocalı şəhərini tarix səhifəsindən silib atan rus-erməni hərbi alayma – 366-cı alaya rəhbərlik etmiş səxs, indi Ermənistan ordusunun başçısı olan Seyran Ohanyan İrəvan Dövlət Universitetində bir görüş keçirirdi. Müzakirə edilən məsələ bilirsinizmi nə idi: Türkşünaslıq və azərbaycanşünaslığın tədrisinin universitetdəki durumu. Erməni generalı narazılıq edirdi və deyirdi ki, belə yaramaz, biz düşmənin dilini mükəmməl bilməliyik, ona qarşı mübarizədə bu üsuldan istifadə etməliyik. Halbuki Ermənistanda Türkiyə və Azərbaycana qarşı ideoloji mübarizə aparmaq Ermənistan dövlətinin siyasətinin ana xəttini təşkil edir və həm universitetlərdə, həm Elmlər Akademiyası sistemində çox sayda türkoloqlar fəaliyyət göstərir. Türk dilinin, Azərbaycan türkcəsinin tədris olunduğu Universitetlər var, Təhlükəsizlik və

Müdafiə nazirliklərində Türkiyə və Azərbaycan türkcəsi öyrədilir, kadrlar hazırlanır.

Çox təəssüf ki, bizdə – Azərbaycan və Türkiyədə bu iş başlı-başınadır... Yaxşı silahlanmış erməni ideolojisinə qarşı mübarizəni kimin etməsindən asılı olmayaraq Azərbaycan dövləti ona sahib çıxmalı deyilmi? Mən çox təəssüf edirəm ki biz bu işə belə yanaşırıq. Necə ki, gec deyil bu insanların verəcəyi xidmətdən istifadə edilməlidir, onların verəcəyi fayda dərk edilməlidir, onların potensialı dəyərləndirilməlidir. Onsuz da biz başladığımız işi yarımçıq qoymayacağıq, onsuz da biz öz vətən borcumuzu yerinə yetirəcəyik, amma bu iş sadəcə ayrı-ayrı vətənpərvərlərin işi deyil. Qəzetlər yazır ki, erməni millətçisi, türk düşməni Zori Balayana Dağlıq Qarabağda Azərbaycanın say-seçmə oğullarının vertolyotda vurulduğu Qarakənddə mərmər villa tikiblər, çox güman ki, bu mərmərlər bizim qəbristanlıqlardakı məzarların daşlarıdır, onlar bizdən həm də belə qisas alırlar.



## 11. Nəticə: sosial-iqtisadi tənəzzül və ələbaxımlı əhali

Erməni ideoloqlar boyunlarına alırlar ki, Dağlıq Qarabağ Azərbaycandan ayrı yaşadığı bütün bu illər ərzində çox böyük çətinliklərlə üzləşmişdir. Bunu onlar "Dağlıq Qarabağ Respublikası"nın "beynəlxalq səviyyədə tanınmaması" ilə bağlasalar da, səbəb aydındır. Dağlıq Qarabağda nə qədər reformalar, sosial-iqtisadi islahatlar aparmaq cəhdləri olmuşsa da, (həm R.Koçaryan, həm də A.Qukasyan və B.Sahakyan zamanında) onlar heç vaxt nəticə verməmişdir. Separatçılar bu gün onunla öyünürlər ki, guya müharibənin vurduğu yaraları aradan qaldırmaq kimi bir vəzifəni yerinə yetiriblər. "Müharibənin yaraları" adı ilə də "DQR" separatçıları çox alver etmişlər. Hər il bir rayonun sosial-iqtisadi inkişafını təmin etmək adı ilə pul dilənməyə – xeyriyyə marafonu keçirməyə başlayırlar. Bu yığılan pul isə nəzarətsiz olduğundan separatçı rejim başçıları tərəfindən yeyilir, rejim korrupsiya içərisindədir, tez-tez separatçılar arasında pul davası düşür, bu da çox vaxt ölümlə nəticələnir. Bu gün Ermənistanın müdafiə naziri olan "topal Seyran"ı güllələyənlər külli miqdarda pulu aparıb qaçmışdılar.

DQ-da ənənəvi sektorda – kənd təsərrüfatında heç bir yeni uğur yoxdur. Sənayeyə gəlincə, bütün toplantılarda Qarabağ separatçılarının dilindən həmişə səslənən "perspektivli" dağ-mədən sənayesinin inkişafı xəyal olaraq qalır. Ermənistanın qəbul etdiyi pul vahidi – dramla (ərəblərin dirhəm sözündəndir) hesablanan inflyasiya Ermənistandakı kimi olduğu halda "Azat Artsax" qəzetinin redaktor müavini Naira Ayrumyanın "qələmindən" belə verilir: "2001–2006-cı illərdə orta illik daxili məhsul 11–13 % təşkil etmişdir. 2007-nin sonlarına görə, 71 milyard dramlıq məhsul istehsal edilmişdir, əvvəlki ilə nisbətən 8,8% artım müşahidə olunmuşdur. Gəlir 2007-ci ildə nəfər başına 510 min dram olmuşdur (1489,5 ABŞ dolları). Guya 2008-ci ildə 13,8%-lik iqtisadi artım gözlənilirdi. Amma bu iqtisadi böhran (?) imkan vermədi. 2009-da böhranın ağrılarını yaşamaqdadırlar.

Gətirilən digər rəqəmlər də saxta və reallığı əks etdirmir. "DQR"-də uzunmüddətli energetikanın inkişafı layihəsi həyata keçirilir. Yeganə su elektrik stansiya – Sərsəngdə planlaşdırılan 24–25 mini SES yarımçıq qalıb. Tərtər çayı üzərində tikiləcək bu qurğular hələ alınmayıb. Qarabağ istifadə etdiyi elektrik enerjisinin yalnız 30%-ni verir, qalanı Ermənistandan və "dost" İrandan alınır.

Dağlıq Qarabağda olan ən iri kombinat – **Drımbon** kombinatı – "Beyz Metls" adı ilə fəaliyyət göstərir, o ildə 150 min ton metal emal etmək üçün layihələşdirilmişdi. Burada emal mümkün olmamışdır. İndi buradan xammal Ermənistana – Alaverdi Molibden kombinatına daşınır. Dağlıq Qarabağdan Azərbaycanın sərvətləri Ermənistana daşınır və bu yolla əldə edilən gəlirlə "DQR ordusu" saxlanılır.

1980-ci illərin sonlarında burada 180 min ton üzüm istehsal edilirdi, güclü emal sənayesi vardı. İndi necədir? Heç bir müasir texnologiya buraya gəlməmişdir. Köhnələr isə məhv edilib, çaxır çənləri İrana satılmışdır. "Artsaxfrut" adlı meyvə emalı müəssisəsinin məhsulları isə çox keyfiyyətsiz olduğundan alıcısı yoxdur. Ac Ermənistana Qarabağın meyvə şirələrimi lazımdır?

Dağlıq Qarabağın yeraltı sərvətləri talan edilir. Qızıl, gümüş, qiymətli əlvan metallar, dəmir, qranit mərmər, island şpatı, qiymətli daşlar, əhəng gil, dağ bülluru... Saymaqla bitməz. Bütün bunları ermənilər çıxarıb daşımaq-

la məşğuldurlar. Onlar buranı özlərinin hesab etmədiklərindən bu sərvətlərin talan edilməsini amansızca həyata keçirirlər. Taxılçılıq sahəsində də elə bir ciddi uğur yoxdur. 2009–2012-ci illərdə Banazur regionu (iqtisadi rayonu) üzrə hektardan 10–12 sentner taxıl götürülmüşdür. Halbuki 1988-ci ilə bu rəqəm 21 idi. Aqrar region olan DQ-də ümumi daxili məhsulun 15, 7 % -ində bu sektorun payı var.

Turizm əsas gəlir sahəsi hesab olunsa da, buraya gələnlər çox azdır. Xaricdə yaşayan bir erməni (Aram Sasunyan) "Diqax" şirkəti) Şuşanın Qazançı hissəsində 750 kvadratmetrlik otel, restoran və digər yardımçı binalar tikməyə başlamışdı. İndi peşman olub. Çünki gəlir götürməyəcək. Gələn adam onsuz da boş olan şəhər evlərində qalacaq. Kim pulunu havayı yerə verər? Burada bank – maliyyə sistemi də bərbad vəziyyətdədir. 2009–2011-ci illərdə dövlət büdcəsi analoji olaraq **22, 26, 30, 9** milyard dram olaraq proqnozlaşdırılır. Sən saydığını say, gör fələk nə sayır ...

Gülməli də görünsə Dağlıq Qarabağa "investisiya cəlbi"ndən ağızdolusu danışılır, Guya ki, 2007-də hər adambaşına 210 dollar, 2008-də 250 dollar sərmayə qoyulub, ümumi hesabla bu 100 milyon dollardır. Gülməli və ironik rəqəmlərdir və heç bir əsası olmayan faktlardır. Çünki xalqın sosial müdafiəsi, əhalinin yaşayış minimumu çox aşağı rəqəmlər səviyyəsindədir.

Burada gözlərini kənara dikiblər, xaricdən adam gələn kimi əlinə və cibinə baxırlar. 5 illik fəaliyyəti təsdiq olunmuş yeni hökumətin korrupsiyaya uğraması və "çirkli pullar"ın yuyulması ilə məşğul olması barədə iddialar səslənir. Buradakılar ondan narazıdırlar ki, qonşunun təsiri ilə (Azərbaycan nəzərdə tutulur) Avropa Birliyindən və digər təşkilatlardan birbaşa yardımlar gəlmir. Onlar özlərini Kosova ilə müqayisə edirlər. Budur, Serbiya etiraz etsə də, Kosovaya Avropa Birliyi 122,7 milyon avro verdi. "Yeni dövlət"in sosial – iqtisadi ehtiyaclarını ödəmək üçün onlar da hardansa pul gözləyirlər, bu pullar bəzən erməni zənginləri tərəfindən göndərilir. Amma deyəsən, son vaxtlar Kirk Kirkonyanlar, Gülbekyanlar yaman xəsislik edirlər. 1998-ci ildən bəri ABŞ Konqresinin qərarı ilə Dağlıq Qarabağa humanitar yardım edilirdi. 2008-ci ildə bu yardım 3 milyona endirildi, bu il isə tamamilə kəsildi.

Halbuki Bako Sahakyan 8 milyon alacaqları barədə bəyanat verirdi.

Göründüyü kimi, Dağıq Qarabağda heç bir iqtisadi potensial yoxdur, nəzərdə tutulan bütün "perspektiv planlar" iflasa uğramışdır. Ermənilərin statistikasına görə, burada 145 min əhali yaşayır, halbuki erməni mətbuatında bu rəqəm onun yarısı kimi göstərilir. Burada baş verən hadisədə 40 mindən çox azərbaycanlınm Vilayəti tərk etməsi, ölüm-itim, qaçqınlıq və xoşbəxt həyatı başqa ölkələrdə axtarmaq (bu erməni xarakteridir) şübhəsiz ki, Dağlıq Qarabağda yaşama təsir etmişdir. Ağlı başında olan hər bir şəxs yaxşı gün görmək ümidi ilə Dağlıq Qarabağı tərk etmək eşqi ilə yaşayır. Buna nail olan özünü xoşbəxt sayır. Zənnimizcə, münaqişənin başlamasından keçən 20 il ərzində onları bircə sual düşündürəcək: **Bütün bunlar lazım idimi?**






Erməni və gürcü bolşeviklərinin bir gecədə yaratdıqları DQMV-in işğalaqədərki sərhədləri



Xankəndi: işğaldan əvvəl (1985-ci il)...



...və işğaldan sonra





Şuşada sanatoriya binası (1986)



Şuşa işğaldan öncə




Ermәni şovinistlәrinin baş qaldırmasından sonra Xankәndi küçәlәrindә vәziyyәt



Şuşa: işğaldan sonra...



Şuşa: işğaldan әvvәl...

## О РЕШЕНИИ ВНЕОЧЕРЕДНОЙ СЕССИИ ОБЛАСТНОГО СОВЕТА НАРОДНЫХ ДЕПУТАТОВ НАГОРНО-КАРАБАХСКОЙ АВТОНОМНОЙ ОБЛАСТИ АЗЕРБАЙДЖАНСКОЙ ССР ОТ 20 ФЕВРАЛЯ 1988 ГОДА «О ХОДАТАЙСТВЕ ПЕРЕД ВЕРХОВНЫМИ СОВЕТАМИ АЗЕРБАЙДЖАНСКОЙ И АРМЯНСКОЙ ССР О ПЕРЕДАЧЕ НАГОРНО-КАРАБАХСКОЙ АВТОНОМНОЙ ОБЛАСТИ ИЗ СОСТАВА АЗЕРБАЙДЖАНСКОЙ ССР В СОСТАВ АРМЯНСКОЙ ССР»

Верховный Совет Армянской ССР отмечает, что вопрос о Нагорном Карабахе, как и многие другие нерешенные проблемы межнациональных отношений, находится в центре внимания Центрального Комитета КПСС, о чем свидетельствует проникнутое духом социалистического интернационализма Обращение Генерального секретаря ЦК КПСС М. С. Горбачева к трудящимся, к народам Азербайджана и Армении. Это Обращение с чувством благодарности и большой ответственности за укрепление дружбы советских народов было воспринято общественностью, всеми трудящимися Советской Армении.

Решением Политбюро ЦК КПСС секретариату ЦК поручено организовать глубокое и всестороннее изучение накопившихся проблем в автономной области Нагорного Карабаха, причин обострения межнациональных отношений вокруг него, проработку соответствующих предложений и по мере готовности вносить на рассмотрение ЦК КПСС и правительства СССР. Свидетельством большого внимания к проблемам Нагорного Карабаха, к нуждам трудящихся области является и постановление ЦК КПСС и Совета Министров СССР о мерах по ускорению социально-экономического развития Нагорно-Карабахской автономной области.

Верховный Совет республики единодушно поддерживает Тезисы ЦК КПСС к XIX Всесоюзной партийной конференции, в которых отмечается, что в рамках перестройки политической системы следует рассмотреть и принять назревшие меры по дальнейшему развитию советской федерации, требуется постоянное внимание к вопросам межнациональных отношений, развитию каждой нации и народности.

Верховный Совет Армянской Советской Социалистической Республики постановляет:

1. Всесторонне изучив решение внеочередной сессии областного Совета народных депутатов Нагорно-Карабахской автономной области Азербайджанской ССР от 20 февраля 1988 года и учитывая сложившуюся напряженную обстановку в Нагорном Карабахе и вокруг него, а также волеизъявление армянского населения НКАО и Армянской ССР, руководствуясь статьей 70 Конституции СССР о праве свободного самоопределения наций, дать согласие на вхождение Нагорно-Карабахской автономной области в состав Армянской ССР.

2. Просить Верховный Совет СССР рассмотреть и положительно решить вопрос о переходе Нагорно-Карабахской автономной области из состава Азербайджанской ССР в состав Армянской ССР.

3. Верховный Совет Армянской ССР, обращаясь к Верховному Совету Азербайджанской ССР, выражает надежду, что такое решение не нарушит традиционных добрососедских отношений между обеими республиками, и оно с пониманием будет воспринято азербайджанским народом.

Председатель Президиума Верховного Совета
Армянской ССР Г. ВОСКАНЯН

Секретарь Президиума Верховного Совета
Армянской ССР Н. СТЕПАНЯН

15 июня 1988 года, гор. Ереван.

DQMV-nin Azərbaycanın tərkibindən çıxarılması üçün Ermənistan Ali Sovetinin növbəti cəhdlərindən biri



Veng kəndi



Hadrut qəsəbəsi - 1985



Ermənilərin at oynatdıqları Şuşa





Xankəndi 2008-ci il



Dağlıq Qarabağdakı ermənilərin yaşayış şəraiti acınacaqlıdır





Şuşanın xarabazara çevrilmiş tarixi abidələri arasında erməni uşaqları





Bu şəkillər işğaldan sonra Dağlıq
Qarabağdakı ümumi vəziyyəti əks etdirir





Ağdamın işğaldan sonrakı durumu



Şuşanın ümumi görünüşü




İanələr hesabına çəkilən Şuşa–Xankəndi yolu



Şuşadakı abidələrə qarşı erməni vandalizmi



Erməni işğalının nəticəsində doğma torpaqlarını itirən soydaşlarımız

## Mənbələr

***Kitablar, dövri nəşrlər:***


1. Arzumanlı V., Mustafa Nazim. Tarixin qara səhifələri. Bakı, Qartal Nəşriyyatı, 1998
2. "Azərbaycan"qəzeti, 18 oktyabr 1918
3. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 841, iş 290, vərəq 39
4. Hacıyev Sani. Türkiyə-Rusiya münasibətləri və erməni terroru. "Bakı Universiteti" nəşriyyatı, 1998
5. Seyidov Mirəli. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı. "Yazıçı", 1989
6. Səmədzadə Ziyad. Dağlıq Qarabağ: Naməlum həqiqətlər. Bakı, "Vətən" nəşriyyatı, 1995
7. Sov. İKP nəzdində Markisizm Leninizm İnstitutunun Mərkəzi Partiya arxivi, F - 461 P-1, D- 4525 L. 1
8. Şaumyan. S, Seçilmiş əsərləri. Bakı, 1978-ci il, II cild
9. Bildirici Yusuf Ziya. Adanada ermenilerin yaptığı katliamlar ve fransız ermeni ilişkileri. Köksav yayınları Ankara 1999
10. Gnkur.ATAŞE Arşiv belgeleri KLS 2818, d. 59, F.2-19
11. "Hakimiyet-i milliye" qazetesi, 20 Ocak 1920





12. "Kurtuluş savaşında İçel. Türkiye Kuvayi Milliye Mücahit ve Qazileri Cemiyeti. Mersin Şubesi Yayınları, İstanbul 1971
13. Loti Pierre "Sevgili Fransamızın Doğudakı ölümü". TC Kültür Bakanlığı Yayınları, Ankara 2000
14. "Yeni Adana" qazetesi, 2 Şubat 1920
15. Аракелов Роберт. Карабахская тетрадь. Азернешр, 1995
16. "Армянская проблема в свете мирового баланса сил. Издание Турецкого Радио и Телевидение. г. Анкара 2007
17. Arutyтюнян А. Кавказский фронт 1914-1917. г. Ереван 1971
18. "Бакинский рабочии ", № 8, 1923
19. Кочар Мери. «Армяно-турецкие общественно-политическое отношения и армянский вопрос. Ереван – 1988
20. Пирумов С.Г (Пирумян) «Дашнаки за рубежом». Издание научной Ассоциации Востоковедения, Тифлис, 1934
21. Помпеев Юриу. **"Кровавый омут Карабаха"**, Баку, "Азербайджан", 1992
22. V.Kudulyan. Andraniki baderazmı kitabı, (ermənicə) Beyrut, 1929, 24 05
23. "Нисак" qəzeti, 1890, № 9

24.“Droşak” qəzeti, 1899,№8.
25.“Ports” (“Sınaq”) jurnalı, 1879, №8.
26. Qarabağ, Suallar, faktlar (müəlliflər heyəti), Bakı, Qismət nəşriyyatı, 2005
27. Məmmədov N.R. “Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində ictimai-siyasi həyat, iqtisadi və mədəni inkişaf (1923–1991)”, Bakı ,Təhsil nəşriyyatı, 2008
28. К истории образования Нагорно-Карабахской Автономной области Аз.ССР, Баку Азериешр – 1989.

***Erməni elektron KİV, analitik mərkəz və internet-saytları***

www.analitika.at.ua .14.05.09
www.panarmenian.net. 13.04.08
www.ararat- center-1605.07
www.tert.am 18.12.08
www.arev.ru .23.09.07
www.azg.am. 13.08.09
www.haykakan jamanak.am.14.09.08
www.hayots aşxarh.am.16.12.08
www.çorort işxanutyun.am 29.09.08
www. zinvor..12.08.07
www. kapital . am 06.05.09
www.mitk.am. 18.07.09



## MÜNDƏRİCAT

Ön söz yerinə
«Qarabağın Dağlıq və Aran hissələri Siam əkizləridir» ........ 3
1. Dağlıq Qarabağ coğrafi məkan kimi ........ 7
2.Siyasi-iqtisadi münasibətlərin bəzi tarixi məqamları ........ 12
3. Dağlıq Qarabağı Azərbaycandan qoparmaq cəhdləri ........ 18
4.Təbii coğrafi region... və inkişafın Dağlıq Qarabağ nümunəsi ........ 43
5.Münaqişələr tarixinə qısa ekskurs ........ 62
6.Erməni terrorunun qurbanlarından biri-Dağlıq Qarabağ ........ 70
7. Vətəndən ayrı salınmış Dağlıq Qarabağın indiki durumu ........ 80
8.Ermənilər indi daha çox dərk edirlər ki, onlar öz evlərində yaşamırlar ........ 88
9. Erməni iddiaları sonsuzdur ........ 92
10. Xocalı soyqırımının tanıdılmasına qarşı erməni erməni antitəbliğatı ........ 99
11. Nəticə: sosial-iqtisadi tənəzzül və ələbaxımlı əhali ........ 107

Nəşriyyat redaktoru:
Qaşqay ZİYƏDDİNOĞLU

Çapa imzalanmış 25.07.2009. Ofset çap üsulu.
Formatı 70x90 $^1/_{32}$ . Fiziki ç. v. 4,25. Tirajı 300.
Sifariş 132. Qiyməti müqavilə ilə.

Hərbi Nəşriyyatın mətbəəsində çap olunmuşdur.
Bakı-1007, C.Hacıbəyli, 26